## Kreml: Zelenski istəsə, Ukraynadakı münaqişə sabah bitə bilər



**“Zelenski bilir ki, əgər o istəsə, Ukraynadakı münaqişə sabah da bitə bilər”.**

APA xəbər verir ki, bunu Kremlin mətbuat katibi Dmitri Peskov Ukrayna Prezidenti Vladimir Zelenskinin Ukraynadakı xüsusi hərbi əməliyyatların gələn il bitəcəyi ilə bağlı dediklərinə cavabında söyləyib.

*Xatırladaq ki, NATO Baş katibi Yens Stoltenberq alyansın Ukraynadakı münaqişənin gələn ilin yazında kəskinləşməsindən ehtiyat etdiyini qeyd edib.*



## Oxçuçayın çirklənməsi il boyu müşahidə olunur

Monitorinq zamanı çayın rəngi və qoxusu kəskin artıb

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası keçirilib.

(səh.2)

❒ № 225 (5746), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 9 dekabr 2022-ci il (cümə)



# Şagirdlərin 5 faizi siqaret çəkir

Sorğunun nəticələrinə görə, qız şagirdləri isə enerji içkilərinə daha çox meyllidir

**Məktəbli uşaqlar arasında sağlam vərdişlərin tədqiqi ilə bağlı aparılan sorğuların nəticəsi açıqlanıb.**

Bununla bağlı Səhiyyə Nazirliyi yanında İctimai Səhiyyə və İslahatlar Mərkəzinin mütəxəssisi Səbinə Babazadə ”Sağlam çəkiyə doğru” layihəsinin təqdimat mərasimində danışıb.

O bildirib ki, sorğu 52 rayon üzrə 157 məktəbdə aparılıb.

”Respondentlərin 48 faizi oğlan, 52 faizi qızlar olub. 501 sinif üzrə aparılan sorğu zamanı məlum olub ki, şagirdlərin 90 faizdən çoxu sağlamlıqlarını qənaətbəxş hesab edirlər.

(səh.2)





## Laçın yolunda qanunsuz fəaliyyət var

Ceyhun Bayramov Blinkenin köməkçisini məlumatlandırıb

**Dekabrın 8-də xarici işlər naziri Ceyhun Bayramov ilə Amerika Birləşmiş Ştatları dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında telefon danışığı baş tutub.**

XİN-dən ”Şərq”ə verilən xəbərə görə, telefon danışığı zamanı, Azərbaycanla Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, habelə Azərbaycan və ABŞ arasında əməkdaşlıq gündəliyinin müxtəlif məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov sülh müqaviləsi üzrə aparılan danışıqların cari vəziyyəti, kommunikasiyaların açılması və delimitasiya məsələləri üzrə səylər barədə məlumat verib. Bununla yanaşı, Laçın yolundan istifadə etməklə həyata keçirilən son qanunsuz fəaliyyətlər qeyd olunub.

Karen Donfrid ABŞ-ın bölgədə sabitliyin təmin edilməsi səylərini dəstəklədiyini vurğulayıb. Liderlər və nazirlər arasında əldə olunmuş razılıqlara uyğun olaraq sülh prosesinin irəlilədilməsinin vacib olduğunu bildirib.

# ABŞ-nin "F-16" qərarı reallaşmaq üzrədir

Vaşinqton Ankaranın müdafiə ehtiyaclarını qarşılamaq mövzusunda maraqlıdır



**ABŞ Konqresinin Nümayəndələr Palatasının Türkiyəyə ”F-16”-ların satışını məhdudlaşdıran maddələri müdafiə büdcəsi qanun layihəsindən tamamilə çıxarıb. Konqresin hər iki palatasının Silahlı Qüvvələr üzrə Komitələri 2023-cü maliyyə ili üçün 858 milyard dollarlıq müdafiə büdcəsini razılaşdırıblar.**

Qanun layihəsinin son variantında yunan lobbisinə yaxınlıqları ilə tanınan 18 nümayəndə tərəfindən təqdim edilən Türkiyəyə ”F-16” satışlarını məhdudlaşdıran heç bir bənd yer almayıb. ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays deyib ki, Vaşinqton Türkiyəyə ”F-16”lar tədarük etməkdə maraqlıdır: ”Türkiyə bizim NATO-da önəmli müttəfiqlərimizdən biridir. Həmçinin təhlükəsizliklə bağlı əsas tərəfdaşlarımızdandır. ABŞ Türkiyənin müdafiə ehtiyaclarını qarşılamaq mövzusunda maraqlıdır”. Amerika rəsmisi, həmçinin Türkiyənin terror təhdidinə qarşı mübarizəsinə də toxunub: ”Heç bir NATO ölkəsi öz ərazilərində Türkiyə qədər terror təhdidinə məruz qalmayıb.

(səh.4)

## Zaxarova: Ermənistanın dəqiq rəsmi mövqeyi yoxdur



**Ermənistanın Alma-Atı Bəyannaməsini məhz necə qəbul etməsi ilə bağlı dəqiq rəsmi mövqeyi yoxdur.**

Bunu həftəlik brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova deyib.

”Mətbuat konfransında Sergey Lavrov bütün vurğuları qoydu. Daha deməyə söz yoxdur. Bu məsələdə dövlətin rəsmi, vahid mövqeyini anlamaq lazımdır və o zaman biz bu nüansları ictimai şəkildə müzakirə edə biləcəyik.

(səh.2)

# Gələn ilin yaz ayına qədər sülh müqaviləsi mümkün görünmür

Rusiyanın vasitəçiliyi ilə Ermənistanla danışıqlar aparmaq vaxt itkisidir



**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan növbəti dəfə sərsəm açıqlamalar səsləndirib.**

Ötən gün Moskvada Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və rusiyalı həmkarı Sergey Lavrov arasındakı görüşə münasibət bildirən XİN başçısı iddia edib ki, Ermənistanın Qarabağ ərazisində heç bir silahlı qüvvəsi yoxdur. Mirzoyanın sözlərinə görə, yalnız Qarabağın ”müdafiə ordusu” var ki, onun missiyası ermənilərin ”özünümüdafiəsidir”.

(səh.3)



## İranda etiraz aksiyası iştirakçılarından biri edam edildi

**İranda əxlaq polisi tərəfindən saxlanıldıqdan sonra öldürülən Məhsa Əminin ölümündən sonra başlayan etirazlarda bir ilk yaşanıb.**

23 yaşlı Möhsün Şekari adlı şəxs nümayişlərə görə edam edilən ilk şəxs olub.

Buna Möhsün Şekarinin etirazlar zamanı bıçaqla mühafizəçini yaralaması səbəb olub.

İran rəsmiləri hadisədən sonra həbs olunan Şekarinin edam edildiyini açıqlayıblar. Onun haqqında əlavə məlumat verilməyib.

*Qeyd edək ki, ötən gün İran rəsmisi Məsud Sətayeşi və ”Bəsic” silahlısı Ruhallah Əcəmianı öldürməkdə təqsirli bilinən 5 nəfərə də edam hökmü çıxarılıb.*

## Şagirdlər də, müəllimlər də soyuqdan donur

Hazırda ölkəmizdə 2034 məktəb odunla isidilir



**Soyuqdan donan şagirdlər, isidilməyən məktəblərin sayı artır.** Bakının Kürdəxanı qəsəbəsində yerləşən Ağdam şəhər 38, Ağdam şəhər 39, Füzuli şəhər 45 və Şuşa şəhər 7 nömrəli məktəbdə istilik verilmir. Sakinlərin ”Bakupost.az”a verdiyi məlumata görə, noyabrın 15-dən bəri məktəblərdə istilik sistemləri işləmir. Otaqlar soyuq olduğu üçün valideynlərin çoxu uşaqlarını məktəbə göndərmir. Hər sinifdən 2-3 şagird dərsə gəlir.

(səh.4)

## Suitilərin kütləvi ölümü təşviş doğurur

Rusiyanın atdığı raketlərdən Xəzər çirklənir, canlı təbiət də zərər görür



**Xəzər dənizinin Dağıstan sahillərində suitilərin kütləvi ölüm hallarının aşkarlanması ilə əlaqədar Xəzərin Azərbaycan bölməsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən genişmiqyaslı monitorinqlər keçirilib.**

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev bildirib ki, monitorinqlər zamanı dənizin Xaçmaz rayonu ərazisində İstisu qəsəbəsi, Tikanlıoba, Seyidli və Nabran kəndi istiqamətlərində ümumilikdə 17 suiti cəsədi aşkar olunub.

(səh.7)



## Türkiyədə 75 qəpiyə olan dərman bizdə 75 manata satılır

Fuad İbrahimov: “Səbəb inhisarçılıq və birinci dərəcəli qiymət diskriminasiyasıdır”

(səh.3)



## Hansı məntiqlə Şuşada kazino açmaq olar?

Kərim Kərimli: “Ola bilər, kimlərsə Qarabağ adından məkrli istifadə edib pul qazanmaq istəyirlər”

(səh.6)

# İlham Əliyev Albaniyanın Baş naziri ilə təkbətək görüşüb

## Azərbaycan Prezidenti Leyla Əliyevanın rəsm əsərini Edi Ramaya hədiyyə edib





**Dekabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.**

Əvvəlcə rəsmi foto çəkdirildi.

**Qonağı salamlayan Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

- Xoş gəlmisiniz. Sizi bir daha görməyimə çox şadam. Əvvəla, Albaniyaya səfərim zamanı mənə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm. Razılığa gəldiyimiz kimi, biz fəal dialoqu davam etdirəcəyik. Sizin səfəriniz artıq razılaşdırılmış məsələlərin gedişatını izləmək xarakteri daşıyır. Hər iki tərəfdən bütün tapşırıqlar verilib. Heyətlərimiz fəal şəkildə işləyirlər. Mənim rəsmi səfərimin nəticələri olduqca müsbətdir. Bizim əlaqələrimiz güclənir və yeni imkanlar yaranır. Sizə məlumat verdiyim kimi, biz Tiranada səfirlik açırıq və bu da əməkdaşlığımızın vacib bir əlamətidir. Praktiki nöqteyi-nəzərdən bu, bizə ölkənizdə gedən proseslərlə daha yaxından tanış olmaq imkanı verəcək. Eyni zamanda, bu, bizə ikitərəfli gündəliyimizdə daha da səmərəli olmağa imkan yaradacaq. Bir daha xoş gəlmisiniz.

***

**Albaniyanın Baş naziri Edi Rama dedi:**

-Təşəkkür edirəm cənab Prezident. Bu, mənim üçün şərəfdir. Mən də təşəkkürümü ifadə etmək istəyirəm. İcazə verin deyim ki, məsələlərin gedişatı ilə bağlı təəssüratım heyrətamizdir. İndi ölkəmizdə Azərbaycan səfirliyinin açılması çox vacib bir məsələdir. Qalan digər məsələlərə gəldikdə isə Siz dediyiniz kimi, biz işi davam etdirməliyik. Təşəkkür edirəm.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə işçi səhər yeməyi əsnasında geniş tərkibdə görüşü olub.

Daha sonra dövlətimizin başçısı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın çəkdiyi rəsm əsərini və Leyla Əliyevanın əsərlərinin kataloqunu qonağa hədiyyə etdi.

## Prokurorluq işçilərinin maaşlarına əlavələrin məbləği artırılıb

**Prokurorluq işçilərinə pul mükafatının verilməsi məqsədilə hər il növbəti il üçün təsdiq edilən dövlət büdcəsində prokurorluq işçiləri üçün müəyyən olunmuş aylıq vəzifə maaşının 3 misli həcmində əlavə vəsait nəzərdə tutulur.**

Bununla bağlı Prezident İlham Əliyev "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanuna dəyişikliyi təsdiqləyib.

Dəyişikliklə prokurorluq işçiləri hər ay vəzifə maaşlarının bir misli deyil, 1,25 misli məbləğində vəzifə maaşına əlavə alacaqlar. Prokurorluq işçilərinə pul mükafatının verilməsi məqsədilə hər il növbəti il üçün təsdiq edilən dövlət büdcəsində prokurorluq işçiləri üçün müəyyən olunmuş aylıq vəzifə maaşının 3 misli həcmində əlavə vəsait nəzərdə tutulur.

Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.



## Oruc Zalov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi

**Prezident İlham Əliyev O.İ.Zalovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamla Azərbaycan Respublikasının daxili işlər orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Oruc İbrahim oğlu Zalov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

# Fransa bölgəni yeni xaosa sürükləyir

Araik Arutyunyanın Parisdə peyda olması həm də Fransanın Kremlə xidmətidir



**Qarabağdakı separatçı rejimin "lideri" Araik Arutyunyan Fransa Senatında olub. Araik Parisdə Azərbaycanı pisləyən, əsassız ittihamlar edən, qətnamə hazırlayıb səs verən ermənipərəst senatorlar tərəfindən qəbul edilib və rəğbətlə qarşılanıb. Arutyunyan fürsətdən istifadə edərək, oradakı çıxışlarında təxribatçı bəyanatlar verməkdə davam edib.**

Bundan başqa, Fransa tərəfi separatçı ünsürə geniş media platforması təqdim edərək, sərsəm ideyaların təbliği üçün ona imkan yaradıblar. Gülünc olanı isə Fransanın dövlətə bağlı "France 24" kanalında Arutyunyanın qondarma xunta rejiminin "prezidenti" kimi göstərilməsi olub. Fransa bu addımla növbəti dəfə sübut edib ki, bütün dünyanın mübarizə apardığı radikal separatizmi dəstəkləyir. Rəsmi Parisin öz ölkəsinin maraqlarını bir ovuc erməni lobbisinin maraqları üzərində qurması, milli maraqlarını erməni siyasətinə qurban verməsi Fransa adına utancvericidir. Digər yandan Fransanın Araik üçün geniş meydan açması və bu istiqamətdəki fəaliyyətləri bölgədə sülh prosesini zərbə altına qoyur, Cənubi Qafqazda təhlükəsiz mühitin formalaşmasına mane olur. Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva "France24" telekanalının qondarma rejimin "rəhbəri" Araik Arutyunyanla müsahibəsinə münasibət bildirib. Səfir "Twitter" paylaşımında telekanalın bu addımını pisləyib. Azərbaycanlı diplomatın sözlərinə görə, dünya tərəfindən tanınmayan qeyri-qanuni qurumun nümayəndəsinin müsahibəsinin "France24" tərəfindən yayımı separatizmin təbliğinə təkan verir. Azərbaycan dövlətinin suverenliyini və ərazi bütövlüyünü pozur və eyni zamanda gərginliyi artıraraq sülh səylərinə zərbə vurur.

**Millət vəkili Sahib Alıyev deyib ki, baş separatçı rolunu de-fakto dələduz Robert Vardanyana təhvil verən Araik Arutyunyanın Fransada peyda olması və Parisin Qafqazda fəallaşmaq cəhdləri erməniləri xeyli ruhlandırıb. Deputat bildirib ki, ermənilər elə düşünürlər ki, guya, bu gedişlə Fransa Rusiyanı vurub Ermənistandan çıxaracaq və "kiçik bacını" öz qanadı altına alacaq:** "Kökündən yanılırlar. Birincisi, onlar diqqət yetirib görsünlər, Arutyunyan Fransada kiminlə görüşür. Hələ gənc yaşlarında DTK-nın əməkdaşlığa cəlb etdiyi deyilən Valeri Pekreslə görüşür. O xanımla ki, düz bir il bundan öncə Moskva onun Xankəndidə peyda olmasına şərait yaratmaqla Fransada keçirilməsi gözlənilən prezident seçkisində qələbə çalmasına çalışırdı. Niyə Arutyunyanın görüşdüyü və görüşəcəyi adamlar arasında məhz bu xanımın üzərində dayandım? Çünki bütövlükdə Fransanın bizim regiona yanaşmada yeritdiyi siyasət, hətta Avropa Birliyinin adından Ermənistana göndərilən missiya belə dolayısıyla Rusiyanın maraqlarına xidmət edir. Makronun Avropa Birliyi adından Ermənistana missiya göndərməkdə və qalma vaxtını uzatmağa çalışmaqda məqsədi Azərbaycan-Ermənistan sərhədində rəsmi İrəvanın arzuladığı vəziyyəti təmin etməkdir. Burada Rusiyanın marağına cavab verməyən heç nə yoxdur. Əksinə, sərhəddə gərginlik yarananda Rusiyanın müttəfiq, KTMT-nin isə sipər kimi gərəksizliyi meydana çıxırdı. Forpostdakılar Moskvaya donquldanırdılar. Avropa Birliyinin missiyasının orada olması Rusiyaya sərf edir". Parlament üzvü vurğulayıb ki, rəsmi Paris, birincisi, İranla eyni oyunu oynayaraq Qafqazda sülhün yaranmasının qarşısını alır: "Avropa Birliyi ilə Azərbaycanı üz-üzə qoymağa çalışır ki, Kremlə bundan böyük xidmət ola bilməz. Çünki Avropanın enerji təhlükəsizliyinin təminində problemlər yaranır və onun bütün üzvlərinin eyni mövqedən çıxış etmələri böyük müşkülə çevrilir. Makron Fransası, guya, Ermənistana dəstək adı altında Avropanı Azərbaycandan qaz və neft almamağa çağırır. Ona görə də əgər ermənilər düşünürlərsə ki, Fransa Rusiyanı Ermənistandan vurub çıxaracaq və oranı öz forpostuna çevirəcək, yanılırlar".

*Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov da deyib ki, Araik Arutyunyanın Fransada mətbuat konfransında iştirak edərək çıxış etməsi və müsahibəsinin media vasitəsilə yayımlanması, sözsüz ki, rəsmi Parisin Cənubi Qafqazda terrorçuluğu və separatçılığı himayə etdiyinin göstəricisidir:* "İki günlük səfər zamanı Arutyunyan Fransa parlamentinin bütün fraksiya rəhbərləri ilə görüşüb və daim erməni diasporunun kasasından su içən deputatlarla Cənubi Qafqazdakı məsələləri müzakirə edib. Qondarma "Artsax"ın Fransa dövləti tərəfindən tanınması üçün işlərin başa çatdırılacağına inandığını vurğulayıb. Görüşlərdə Azərbaycan əleyhinə fikirlər səsləndirilib, Qarabağ ətrafında cərəyan edən proseslər müzakirə olunub. İstisna deyil ki, Arutyunyanın səfərinin məqsədlərindən biri Ruben Vardanyanın kassiri kimi bu yaxınlarda Azərbaycana qarşı qətnamə qəbul edən fransız parlamentarilərə avrolar gətirmək və onları yeni anti-Azərbaycan qətnamələri və qərarları qəbul etməyə həvəsləndirmək olub. Söhbət Fransa lideri Makronun, Fransadakı erməni diasporunun və Nikol Paşinyanın Laçın dəhlizi ilə bağlı birgə gizli planından gedir. Sözsüz ki, rəsmi Parisin və onun erməni əlaltılarının apardığı siyasət ermənilərin qorunmasını deyil, əksinə, yeni müharibəni labüd edir. Fransanın apardığı siyasət Azərbaycan və Ermənistan arasında sülh prosesinə xələl gətirir və bölgəni yeni xaosa sürükləyir. Lakin həm Ermənistan, həm Fransa, həm də separatçılar odla oynadıqlarının fərqində olmalıdır. Hadisələr Azərbaycanın dəmir yumruğunun işə düşməsini bir daha labüd edə bilər".

**İsmayıl Qocayev**

# Ermənistanın dəqiq rəsmi mövqeyi yoxdur

## Zaxarova: "Son vaxtlar biz çoxlu şərhləri, nüansları, müxtəlif yanaşmalar görürük"

**Ermənistanın Alma-Atı Bəyannaməsini məhz necə qəbul etməsi ilə bağlı dəqiq rəsmi mövqeyi yoxdur.**

**Trend xəbər verir ki, bunu həftəlik brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova deyib.**



"Mətbuat konfransında Sergey Lavrov bütün vurğuları qoydu. Daha deməyə söz yoxdur. Bu məsələdə dövlətin rəsmi, vahid mövqeyini anlamaq lazımdır və o zaman biz bu nüansları ictimai şəkildə müzakirə edə biləcəyik. Mən İrəvanda rəsmi şəkildə uyğun mövqe olmadan Sergey Lavrovun danışdıqlarına nə əlavə edəcəyimi bilmirəm. Son vaxtlar biz çoxlu şərhləri, nüansları, çoxlu müxtəlif yanaşmalar görürük. Əsasən, rəsmi İrəvanın bu aspektlərlə bağlı mövqeyini başa düşmək lazımdır", - deyə o bildirib.

Qeyd edək ki, daha əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov demişdi ki, Praqada keçirilən dördtərəfli görüşdə Ermənistan tərəfinin Alma-Atı Bəyannaməsini qeyd-şərtsiz təsdiqləməsi Qarabağın statusu məsələsini həll edir.

"Almatı bəyannaməsində göstərilir ki, bütün ittifaq respublikaları SSRİ respublikaları arasında mövcud olmuş sərhədlər daxilində sərhədlərin toxunulmazlığını təsdiq edir, başqa sözlə, həmin vaxt Dağlıq Qarabağ Muxtar Vilayəti birmənalı olaraq Azərbaycan SSR-in tərkibində olub. Bəyannamə həm Azərbaycan, həm Ermənistan, həm Fransa və Şarl Mişel tərəfindən heç bir qeyd-şərtsiz təsdiq edildikdə bu, Qarabağın statusuna necə yanaşmaq məsələsini həll edir", - deyə Rusiya XİN rəhbəri bildirmişdi.

# Oxçuçayın çirklənməsi il boyu müşahidə olunur

## Monitorinq zamanı çayın rəngi və qoxusu kəskin artıb





**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası keçirilib.**

İclasda İşçi qrupunda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Azərbaycan Respublikası Prezidentinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə xüsusi nümayəndəliklərinin üzvləri iştirak edib.

İştirakçılara ekoloji vəziyyətin qiymətləndirilməsi məqsədilə işğaldan azad edilmiş rayonlarda həyata keçirilən monitorinqlər barədə məlumat verilib, müzakirələr aparılıb. İclasda qrup üzvlərinə, həmçinin Oxçuçayın transsərhəd çirklənməsinin qarşısının alınması, ekosistemin bərpası, suyun keyfiyyətinin yaxşılaşdırılması üçün elmi cəhətdən əsaslandırılmış tədbirlərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması üçün aparılmış biomonitorinqlər haqqında məlumat verilib.

Oxçuçayın suyunun çirklənmə səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə ötən həftə aparılmış monitorinqlər zamanı suyun rəngində ciddi dəyişikliklər və kəskin qoxu müşahidə olunub. Çayın Ermənistanla sərhədinə yaxın monitorinq nöqtəsindən götürülmüş su nümunələrinin təhlilindən məlum olub ki, suyun tərkibində dəmir, manqan, molibden, ammonium və sulfatların qatılığı daha da artıb. Transsərhəd çaylarda, o cümlədən Zəngilan rayonu Şayıflı kəndində Oxçuçayda quraşdırılmış yeni nəsil avtomat hidroloji stansiyalardan ötürülən məlumatların təhlili də çirklənmənin artdığını təsdiq edib.

Oxçuçayın ağır metallarla çirklənməsi il boyu müşahidə olunur. Son monitorinq zamanı çayın rənginin və qoxusunun dəyişməsinə səbəb Oxçuçayda ammonium və sulfat ionlarının miqdarının kəskin artması idi. Belə ki, Oxçuçayda ammoniumun miqdarı 4-5 dəfə, sulfatın miqdarı bir neçə dəfə normadan yüksək müşahidə edilib. Bu da həmin kimyəvi maddələrdən dağ-mədən sənayesində geniş istifadə olunması ilə əlaqədardır.

Oxçuçayın Qərbi Zəngəzur ərazisindən davamlı çirkləndirilməsi nəticəsində çay və onun ekosisteminin ekoloji böhranı və kritik vəziyyəti barədə məlumatlandırma və çirklənmənin qarşısının alınması çağırışları ilə beynəlxalq təşkilatlara müraciətlər edilib. Həmçinin Oxçuçayın əsas çirklənmə mənbələrindən biri kimi Ermənistan ərazisindəki "Qacaran mis molibden" kombinatının səhmdarı olan Almaniyanın "Cronimet Holdinq" şirkətinə ünvanlanmış müraciət və çağırışlara baxmayaraq, heç bir əməli tədbir görülməyib və çayın çirklənməsi bu gün də davam edir.

Məsələnin ciddiliyini nəzərə alaraq, mütəmadi aparılmış ekoloji monitorinqlər üzrə toplanmış sübutedici sənədlər hüquqi qiymətin verilməsi və müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilib.

Qeyd edək ki, İşçi qrup fəaliyyətini İdarələrarası Mərkəzin digər işçi qrupları və xüsusi nümayəndəliklərlə sıx əlaqə və məlumat mübadiləsi formatında həyata keçirir.

**Şəymən**

# Şagirdlərin 5 faizi siqaret çəkir

## Sorğunun nəticələrinə görə, qız şagirdləri isə enerji içkilərinə daha çox meyllidir

**Məktəbli uşaqlar arasında sağlam vərdişlərin tədqiqi ilə bağlı aparılan sorğuların nəticəsi açıqlanıb.**

Bununla bağlı Səhiyyə Nazirliyi yanında İctimai Səhiyyə və İslahatlar Mərkəzinin mütəxəssisi Səbinə Babazadə "Sağlam çəkiyə doğru" layihəsinin təqdimat mərasimində danışıb.

O bildirib ki, sorğu 52 rayon üzrə 157 məktəbdə aparılıb.



"Respondentlərin 48 faizi oğlan, 52 faizi qızlar olub. 501 sinif üzrə aparılan sorğu zamanı məlum olub ki, şagirdlərin 90 faizdən çoxu sağlamlıqlarını qənaətbəxş hesab edirlər. Sorğuda iştirak edənlərin 0,4 faizi özünü bədbəxt hiss etdiyini deyib".

Onun sözlərinə görə, sorğu zamanı şagirdlərin 5 faizinin siqaret çəkdiyi, qız şagirdlərin isə enerji içkilərinə daha çox meyl etdiyi müəyyən edilib.

Səhiyyə Nazirliyi yanında İctimai Səhiyyə və İslahatlar Mərkəzinin mütəxəssisi Səbinə Babazadə deyib ki, enerji içkilərindən daha çox oğlan uşaqları istifadə edir. 52 rayon üzrə 167 məktəbdə aparılan sorğunun nəticəsində 11 və 13 yaşında olan qızlar demək olar ki, enerji içkilərindən istifadə etmirlər.

"Amma 15 yaşa çatdıqda qızların 28.5 faizi hər gün bir dəfədən çox enerji içkilərindən istifadə edir", - deyə o qeyd edib.



# Gələn ilin yaz ayına qədər sülh müqaviləsi mümkün görünmür

## Rusiyanın vasitəçiliyi ilə Ermənistanla danışıqlar aparmaq vaxt itkisidir

İsmayıl Qocayev

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan növbəti dəfə sərsəm açıqlamalar səsləndirib. Ötən gün Moskvada Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və rusiyalı həmkarı Sergey Lavrov arasındakı görüşə münasibət bildirən XİN başçısı iddia edib ki, Ermənistanın Qarabağ ərazisində heç bir silahlı qüvvəsi yoxdur. Mirzoyanın sözlərinə görə, yalnız Qarabağın "müdafiə ordusu" var ki, onun missiyası ermənilərin "özünümüdafiəsidir".**

XİN rəhbərinə görə, ermənilərin "etnik təmizləmə təhlükəsi" var. Mirzoyan üçtərəfli komissiyanın Moskvada keçirilən son iclasına toxunub: "İşçi qrup çərçivəsində görüşdük. İşlər, müzakirələr gedir. Müzakirə olunan məsələlər kifayət qədər mürəkkəbdir, kifayət qədər mürəkkəb təbəqələr və alt təbəqələr var, lakin iş gedir". Mirzoyan ilin sonuna kimi Ermənistan və Azərbaycan XİN rəhbərlərinin daha bir görüşünün keçirilməsi barədə razılıq olduğunu söyləyib. O əlavə edib ki, görüşün vaxtı hələ müəyyənləşdirilməyib: "Sülh müqaviləsi ilə bağlı danışıqlar davam edir, İrəvan bu yaxınlarda Azərbaycan tərəfdən daha bir təklif alıb və tezliklə öz təklifi ilə çıxış edəcək. Təəssüf ki, bir çox məsələlərdə İrəvan və Bakının yanaşmaları hələ də çox fərqlidir, lakin tərəflər mövqelərini birləşdirmək üçün danışıqlar aparırlar. Qarşılıqlı olaraq qəbuledilməz məsələlər var, elə məsələlər də var ki, tərəflər onların üzərində irəliyə doğru addım atmağa hazırdırlar. Razılaşmanın yekun variantının ilin sonuna qədər əldə oluna biləcəyi ehtimalı azdır, ona görə də danışıqlar gələn il də davam etdiriləcək".

> Silahlı erməni dəstələrinin Qarabağdan çıxarılmasının yeganə yolu məcburetmə əməliyyatlarıdır

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında bildirib ki, erməni nazirin "arqumenti" belədir ki, "Azərbaycanın davamlı atəş açması da "müdafiə ordusu"nun nə qədər vacib olduğunu göstərir. Yeni nazirin fikrincə, erməni əhalisinə qarşı "təhlükə" aradan qalxanda müxtəlif variantları müzakirə edə bilərlər:** "Rəsmi İrəvan bununla bəyan edir ki, Qarabağda hələ də qalan erməni silahlı dəstəni separatçıların qondarma "müdafiə ordusu" olaraq görürlər. Həmçinin 10 noyabr bəyanatında öhdəlik götürsələr də, bu silahlıları çıxarmaq fikrində deyillər. Qarabağda baş verən təxribat hücumlarının intensivləşməsinə də bu kontekstdə baxmaq lazımdır. Ermənilər atəş açır, Azərbaycanı cavab atəşinə təhrik edirlər. Hərbi dəstələrinin bölgədə qalmasının əhəmiyyətini "praktiki formada" göstərirlər. Razılaşmadan iki il sonra da Ermənistanın mövqeyinin dəyişməməsi, əksinə, 4-cü bəndə əməl etməyəcəyini daha açıq mətnlə dilə gətirməsi təsdiq edir ki, silahlı dəstələrin çıxarılmasının yeganə yolu məcburetmə əməliyyatlarıdır".

**Politoloq Məhəmməd Əsədullazadə də "Şərq"ə bildirib ki, Ermənistanla sülh müqaviləsinin bağlanması yaza qədər mümkün görünmür. Ekspert söyləyib ki, Azərbaycan Ermənistana üçüncü sülh müqaviləsinin paketini təqdim edib:** "Detallar ictimaiyyətə açıqlanmasa da, İrəvanın növbəti dəfə bu təklifi manipulyasiya edəcəyi, sülh müqaviləsinin bağlanmasından yayınacağı gözlənilir. Bir neçə gün bundan əvvəl işçi komissiyanın üzvlərinin görüşü keçirildi. Görüşdə nəqliyyat və kommunikasiyaların açılması müzakirə edildi. Məhz İrəvan Zəngəzur dəhlizinin açılmasında maraqlı olmadığı üçün iclasda hər hansı razılıq əldə olunmayıb. Ümumiyyətlə, bundan sonra da bu kimi iclasların nəticəsiz başa çatması gözlənilir. Ermənistanla Rusiyanın vasitəçiliyi ilə bu xüsusda danışıqlar aparmaq vaxt itkisidir".

*Analitikin fikrincə, Rusiya tərəfi liderlərin növbəti görüşünün təşkilində maraqlıdır:* "Ermənistanın möveyinin hansı istiqamətdə olacağı önəmlidir. Əgər İrəvan sülh müqaviləsinin bağlanmasında maraqlı olarsa, görüşdə iştirak etməyə olar. İndiki situasiyada İrəvan Azərbaycanla sülh müqaviləsinin bağlanmasına getməyəcək. Rusiyanın vasitəçiliyi ilə hansı istiqamətə atacağı addımlar prosesi nəzarətdə saxlamağa hesablanıb. Ermənistanla sülh müqaviləsinin bağlanması yaz ayına kimi imkansızdır".

# Mətbuat Şurası İranın Azərbaycandakı səfirliyinə müraciət edib




**Mətbuat Şurası İranın Azərbaycandakı səfirliyinə müraciət edib.**

**Şuradan "Şərq"ə verilən məlumata görə, müraciətdə deyilir:**

"Bir neçə gün əvvəl Azərbaycan mediasında noyabrın 24-də 14 nəfər İran vətəndaşının qeyri-qanuni yolla Azərbaycan ərazisinə keçməsi və ermənilərin yaşadığı bölgəyə daxil olması barədə məlumat yayıldı.

"Bunun ardınca Azərbaycan mediası həmin şəxslərin İran vətəndaşı olmasını təsdiqləyən faktlar, sənədlər də təqdim etdi. Eyni zamanda sözügedən şəxslərin Qarabağdakı terrorçu ermənilərə təlim keçmək üçün gəldikləri barədə mülahizələr də mediada geniş yer verildi. Nəhayət, bütün bunlarla bağlı İranın Azərbaycandakı səfirliyi tərəfindən lazımi açıqlama verilməsi tələbi ilə ortaya haqlı suallar qoyuldu. Səfirliyin davamlı susqunluğu fonunda mediada noyabrın 30-da Azərbaycanın ermənilərin yaşadığı ərazisinə daha 13 İran vətəndaşının keçdiyinə dair faktlara əsaslanan məlumat yayıldı.

Bu hadisə və İrandan Ermənistana silah satışı, sonradan həmin silahların Laçın dəhlizi vasitəsilə Azərbaycan ərazisinə keçirilərək oradakı qeyri-qanuni erməni dəstələrinə çatdırılması məsələsi bu gün də Azərbaycan mediasının əsas mövzularından biri, cəmiyyətimizi dərindən narahat edən məsələlərdir. Yaranmış durumda, istər-istəməz, belə bir qənaət formalaşır ki, İran təcavüzkar Ermənistanı Azərbaycana qarşı hərbi cəhətdən gücləndirməyə və ölkəmizin işğaldan azad olunmuş ərazilərində vəziyyəti gərginləşdirməyə çalışır.

Azərbaycan mediasının çoxsaylı müraciətlərinə baxmayaraq, İranın Azərbaycandakı səfirliyinin indiyədək bu barədə hər hansı münasibət açıqlamadan susqunluq nümayiş etdirməsi dərin təəssüf və narahatlıq doğurur.

Ümid edirik ki, Azərbaycan mediası adından ünvanladığımız bu müraciət cavabsız qalmayacaq, İranın Azərbaycandakı səfirliyi olaraq, qeyd edilən ciddi məsələlərə dair müvafiq rəsmi mövqe bildirəcəksiniz.

Əks təqdirdə, Azərbaycan mediası məlum hadisələrdə İranın neqativ rolunun olmasını həqiqət kimi qəbul etmək məcburiyyətində qalacaq və fəaliyyətini bütünlüklə bu reallığa əsaslanaraq quracaq".

# Kreml "bişmiş aşa su qatır"

## Fərəc Quliyev: "Danışıqların Rusiyada aparılması mənasızdır"



**"Rusiya Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında yeni görüşün öz ərazisində keçirilməsi üçün bütün lazımi köməyi göstərməyə hazırdır".**

Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə bildirib.

Kremlin sözçüsü bildirib ki, Rusiya, təbii ki, öz ərazisində belə bir görüşün keçirilməsi üçün bütün lazımi yardımı göstərməyə hazır olacaq.

O, ilin sonunda MDB-nin Sankt-Peterburqda baş tuta biləcək qeyri-rəsmi sammitindən danışarkən qeyd edib ki, Yeni il öncəsi belə bir görüşün keçirilməsi ideyası var: "Bütün razılaşmalar yekunlaşdıqdan sonra müvafiq açıqlama olacaq. İ.Əliyev və N.Paşinyan görüşündə də anlaşma olarsa, bu barədə mətbuata məlumat veriləcək".

**Məsələni "Şərq"ə dəyərləndirən Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev bildirib ki, Kremlin bu məsələlərdə ən yaxşı xidməti kənara çəkilib bizə mane olmamasıdır:** "Rusiya Qarabağ problemini süni şəkildə yaradıb. Bu gün də məsələnin həllinə mane olur. Kremlin nəzarəti altında dəfələrlə Soçidə, Moskvada Ermənistan və Azərbaycan arasında müzakirələr aparılıb. Hətta 10 Noyabr razılaşması belə onların iştirakı ilə imzalanıb. Lakin Rusiya oradakı heç bir müddəaya riayət edilməsini təmin etmir. Bu yaxınlarda isə sülhməramlı adı altında olan rus hərbçilərinin çıxardığı oyunlar hər şeyi bir daha sübut etdi.

Çünki rəsmi Moskva prosesin bitməsində maraqlı deyil. O, sadəcə, "iplər" əlinə alaraq Bakı və İrəvanı təzyiq altında saxlamaq istəyir. Yəni Kreml "bişmiş aşa su qataraq" əldə olunan razılaşmaları da pozmaq niyyətindədir.

Azərbaycan və Ermənistan Aİ və ABŞ-də danışıqlar aparan kimi rəsmi Moskva əl-ayağa düşür. Ümumiyyətlə isə Rusiyada danışıqların aparılmasının bir mənası yoxdur. Ona görə ki, Moskva pozucu faktordur".

**Nihat Müzəffər**

# Tapşırıq Xameneinindir

## Tehran İrəvanı gücləndirərək, Bakının Zəngəzur dəhlizi tələblərini sıradan çıxarmağa çalışır



**İran Azərbaycanın güclənməsinə, regionda söz sahibi olmasına hər zaman qısqanclıqla yanaşıb. Təsadüfi deyil ki, molla rejimi dövlətimizə qarşı müxtəlif mənfur əməllərə, təxribatlara əl atmaqdan da geri durmayıb.**

Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsini həzm edə bilməyən Tehran rejimi, hətta öz çirkin niyyətinə çatmaq üçün torpaqlarımızı 30 ilə yaxın işğalda saxlayan, dini abidələrimizi, müqəddəs məkanlarımızı dağıdan, təhqir edən Ermənistanla sıx əməkdaşlıq edib. Düşmənə hərbi, iqtisadi, siyasi yardımları əsirgəməyib. Molla rejiminin anti-Azərbaycan siyasəti və Ermənistanla sıx hərbi əməkdaşlığı hazırda da davam edir.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, İranın Ermənistanı silahlandırması birbaşa bu ölkənin ali dini lideri Ayətullah Əli Xameneinin xeyir-duası ilə gerçəkləşir. Ekspertin fikrincə, İranda bu kimi mühüm qərarlar Xameneinin tapşırığı olmadan həyata keçirilə bilməz:** "Xamenei təkcə Ermənistana raket, silah-sursat göndərilməsinə xeyir-dua verməyib, bu silahları istifadə edəcək kadrları yetişdirmək üçün xüsusi mütəxəssislər də göndərib. Noyabrın 24-dən 30-dək rusiyalı sülhməramlıların postundan Qarabağ ərazisinə iki qrup halında 27 nəfər İran vətəndaşı daxil olub. İranlı mütəxəssislər Qarabağa diqqət çəkməmək üçün məhz iki qrup halında gətirilib. Lakin hər iki qrupu gətirən şəxsin Ermənistan vətəndaşı Yura Baqdasaryan olması bu iki qrupun bir-biri ilə bağlı olduğunu və eyni tapşırıq ilə gəldiyini təsdiqləyir. Raket komplekslərinin Ermənistana çatdırılmasından bir ay sonra 27 nəfər İran vətəndaşının iki qrup halında Qarabağa gəlməsi deməyə əsas verir ki, bu şəxslər əslində hərbi təyinatlı şəxslərdir. Əsas missiyaları qanunsuz erməni silahlı dəstələrə təlim keçməkdir. Noyabrın 24-də 14 nəfərlik birinci qrup birbaşa Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazidə qalmış qanunsuz erməni hərbi birləşmələrinə təlim keçmək üçün Qarabağa gəldiyi halda, noyabrın 30-dək gələn ikinci qrup öncə Ermənistana, daha sonra Qarabağa gəlib. Molla rejimi Ermənistanla Azərbaycan arasında hər an başlaya biləcək bir gərginlik qarşısında İrəvanın və dolayı yolla separatçıların hazır olmasını istəyir. Tehran İrəvanı gücləndirərək, Bakının Zəngəzur dəhlizi tələblərini də sıradan çıxarmağa çalışır. Zəngəzur dəhlizi məsələsində "qırmızı xətt" ifadəsini ilk işlədənlərdən biri məhz İran ali dini lideri Əli Xamenei idi".

**İsmayıl**



# Türkiyədə 75 qəpiyə olan dərman bizdə 75 manata satılır

## Fuad İbrahimov: "Səbəb inhisarçılıq və birinci dərəcəli qiymət diskriminasiyasıdır"

**"Türkiyə ilə müqayisədə Azərbaycanda dərmanların qiyməti 5 dəfəyə yaxın bahadır".**

**Bunu "Şərq"ə iqtisadçı-ekspert Fuad İbrahimov "Qalvus Met" adlı dərmanın qiymətinin qalxmasından danışarkən söyləyib.**

O bildirib ki, adıçəkilən dərmanı başqa ölkədən öz anası üçün gətirir: "Diabet xəstələrinin müalicəsində olduqca keyfiyyətlidir. 1 qutu heç bir ay istifadə olunmur. Ağır dərəcəli şəkər xəstələrinə görə nəzərdə tutulan preparatın 5 qat baha satılmasının yalnız bir iqtisadi səbəbi var. O da inhisarçılıq və birinci dərəcəli qiymət diskriminasiyasıdır. İnhisarçı sözügedən dərmana tələbatın olduğunu bilir və istehlakçılara maksimal şəkildə baha qiymətə satır. Nəticədə qat-qat çox vəsait qazanır. Digər problem isə sıravi vətəndaşların dərmanları xarici ölkədən gətirmək istədikləri zaman yaranır. Özləri ilə 3-4 dərman qutusunu Azərbaycana keçirməyə çalışdıqda, təəssüf ki, gömrük əməkdaşlarımız icazə vermirlər. Ölkəmizdə bunun dəfələrlə baha olduğunu izah etmək də işə yaramır, məhəl qoymurlar. Bundan əlavə, iqtisadçı kimi, neçə qutu gətirilirsə, onun 18 faiz idxal, 18 faiz isə Əlavə Dəyər Vergisi (ƏDV) ödəyib, keçirməyi təklif edirəm.



Onda da prosesin xüsusi lisenziya əsasında həyata keçirildiyini deyirlər. Bunun üçün ancaq xüsusi razılıq və İqtisadiyyat Nazirliyinin aidiyyəti şöbəsində müqavilənin təsdiq edilməsi lazımdır.

Bununla bağlı Cənab Prezident İlham Əliyev noyabrın 21-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə xüsusi qeyd etdi ki, iqtisadiyyatımızı xoşagəlməz hallardan azad etməliyik, inhisarçılığa qarşı mübarizəni daha da genişləndirməliyik. Təəssüf ki, bütün preparatların qiyməti eyni vəziyyətdədir".

**Ekspertin qənaətincə, vətəndaşlarımızın istehlak səbətində qida və dərman preparatları üstünlük təşkil edir:** "Belə hallar inhisarçılıqla bərabər cinayət sayılır. Təxminən 4 ildir, o dərmanı Azərbaycana gətirirəm. Bu illər ərzində hər dəfə problem yaşanır. Bu gün hökumətimiz qiymət artımının qarşısını almaq üçün bir çox məhsulları ƏDV-dən azad edirsə, inhisarçılar nəyə görə Azərbaycanda belə rahat fəaliyyət göstərir?! Araşdırılması zəruri olan bu məsələ öz həllini tapmır".

*Qeyd edək ki, sosial şəbəkələrdə daha bir dərmanın qiymətinin kəskin müzakirələrə yol açıb. Bildirilib ki, Bakıdakı apteklərdə 75 manat 66 qəpiyə satılan "Qalvus Met" adlı dərman Türkiyədə beşqat ucuzdur.*

**Sücayət Mehti**



# ABŞ-nin "F-16" qərarı reallaşmaq üzrədir

## Vaşinqton Ankaranın müdafiə ehtiyaclarını qarşılamaq mövzusunda maraqlıdır

**ABŞ Konqresinin Nümayəndələr Palatasının Türkiyəyə "F-16"-ların satışını məhdudlaşdıran maddələri müdafiə büdcəsi qanun layihəsindən tamamilə çıxarıb. Konqresin hər iki palatasının Silahlı Qüvvələr üzrə Komitələri 2023-cü maliyyə ili üçün 858 milyard dollarlıq müdafiə büdcəsini razılaşdırıblar.**

Qanun layihəsinin son variantında yunan lobbisinə yaxınlıqları ilə tanınan 18 nümayəndə tərəfindən təqdim edilən Türkiyəyə "F-16" satışlarını məhdudlaşdıran heç bir bənd yer almayıb. ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays deyib ki, Vaşinqton Türkiyəyə "F-16"lar tədarük etməkdə maraqlıdır: "Türkiyə bizim NATO-da önəmli müttəfiqlərimizdən biridir. Həmçinin təhlükəsizliklə bağlı əsas tərəfdaşlarımızdandır. ABŞ Türkiyənin müdafiə ehtiyaclarını qarşılamaq mövzusunda maraqlıdır". Amerika rəsmisi, həmçinin Türkiyənin terror təhdidinə qarşı mübarizəsinə də toxunub: "Heç bir NATO ölkəsi öz ərazilərində Türkiyə qədər terror təhdidinə məruz qalmayıb. Bu təhdidlə mübarizə üçün lazım olanları təmin etmək bizim üçün də əhəmiyyət kəsb edir".

Türkiyənin XİN başçısı Mövlud Çavuşoğlu bu addımı təqdir etdiklərini açıqlayıb.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, Türkiyənin Yaxın-Orta Şərqdə artan nüfuzu, mövqeyinin gücləməsi ABŞ-dən də çox yaxşı görünür. Professorun sözlərinə görə, Türkiyə təkcə türk dünyasının deyil, həm də islam aləminin aparıcı gücünə çevrilib:** "Nüvə silahına sahib yeganə ölkə Pakistan da Türkiyənin yanında yer alıb. Amerika anlayır ki, güclənən Türkiyə ilə tərs düşmək Ağ Evin ziyanınadır. Qərb ölkələri ilə Türkiyənin arasını vurmağa çalışanlar, sadəcə, yunan lobbisi yox, həm də erməni lobbisidir. Ancaq 44 günlük müharibədən və sonrakı proseslərdən sonra ABŞ-də erməni lobbisinin təsir imkanları xeyli zəifləyib. Təbii ki, bu məsələdə Amerikanın regionla, ələlxüsus Cənubi Qafqazla bağlı siyasəti də mühüm rol oynayır. ABŞ uzaqgörən siyasət həyata keçirir, çünki onların hərbi təhlükəsizlik konsepsiyasında Türkiyə və Azərbaycan çox önəmli rola sahibdir. Ağ Ev Türkiyə hökumətinin Ukrayna ilə bağlı gördüyü işləri, taxıl sazişində əhəmiyyətli rolunu, Rusiyanın hərbi gəmilərinə embarqo qoymasını diqqətdən kənarda qoya bilməz. Ona görə də Vaşinqtonun Türkiyə ilə bağlı siyasətində dəyişiklik baş verir. "F-16"-ların yenidən Türkiyəyə satılması qərarı Ankara hökumətinin uğurudur. Eyni zamanda ABŞ-nin Yaxın Şərq siyasətinin tərkib hissəsidir. Amerika Rusiyadan fərqli olaraq öz maraqlarına daha çox diqqət yetirir. ABŞ-nin İranla bağlı layihələrində də kilid dövlət Türkiyədir".

**İsmayıl Qocayev**

# Şagirdlər də, müəllimlər də soyuqdan donur

## Hazırda ölkəmizdə 2034 məktəb odunla isidilir



"Oktyabrın ilk ongünlüyündə istilik təchizatının hansı halda olması yoxlanmalıdır ki, havalar soyuyanda uşaqlar soyuq sinif otaqlarında dərs keçməsin"

**Soyuqdan donan şagirdlər, isidilməyən məktəblərin sayı artır. Bakının Kürdəxanı qəsəbəsində yerləşən Ağdam şəhər 38, Ağdam şəhər 39, Füzuli şəhər 45 və Şuşa şəhər 7 nömrəli məktəbdə istilik verilmir. Sakinlərin "Bakupost.az"a verdiyi məlumata görə, noyabrın 15-dən bəri məktəblərdə istilik sistemləri işləmir. Otaqlar soyuq olduğu üçün valideynlərin çoxu uşaqlarını məktəbə göndərmir. Hər sinifdən 2-3 şagird dərsə gəlir.**

Onlar da 2 dərsdən sonra müəllimlər tərəfindən evə göndərilir. Çünki müəllimlər özləri də soyuq sinif otaqlarında otura bilmirlər. Məsələ ilə bağlı Qarabağ Regional Təhsil İdarəsinin əməkdaşı Aynurə Məlikova "Bakupost.az"a açıqlama verib. O, mövcud problemdən xəbərdar olduqlarını və hazırda bu istiqamətdə işlərin görüldüyünü bildirib: "Sözügedən məktəblərin fərdi qazanxanası yoxdur. Qəsəbənin qazanxanasına bağlıdır. İstilik problemi də ümumilikdə qəsəbədə yaşanan problemdir. "Azəristilik" hazırda bu problemi aradan qaldırmağa çalışır. Söz veriblər ki, məsələ həllini tapacaq. Dünən həmin məktəblərə qismən istilik verilib. Amma işlər hələ davam edir".

Elm və Təhsil Nazirliyinin mətbuat katibi Cəsarət Valehovun sözlərinə görə, məktəbdə istilik artıq bərpa edilib: "Sabirabad rayonu Kolar kənd tam orta məktəbinin istilik sistemi dizel qazanxana ilə işləyir. Məktəbə dizel yanacağı verildikdən sonra qazanxana işə salınıb və bundan sonra bəzi problemlər ortaya çıxıb. Ustalar təmir işləri aparıb. Artıq məktəbdə istilik bərpa olunub".

Xatırladaq ki, bir neçə gün əvvəl Sabirabad rayonunun Kovlar kənd məktəbində istilik sistemində yaranan problem şagirdlərin etirazına səbəb olmuşdu. "Soyuqdan donuruq" sözləri yazılmış vərəqləri əllərində tutan şagirdlərin görüntüsü sosial şəbəkələrdə yayılmışdı. Məsələ ilə bağlı Mil-Muğan Regional Təhsil İdarəsindən "Təhsil.biz"ə bildirildi ki, problem barədə məlumatlıdırlar: "Məktəb dizel yanacağı ilə qızdırılır. Sözügedən təhsil müəssisəsində istiliklə bağlı yaşanan problem qazanxanada nasazlıq yaranması ilə əlaqədardır. Hazırda bu istiqamətdə işlər görülür, tez bir zamanda problem həllini tapacaq".



**Kamran Əsədov:** "Məktəblərdə tədris yox, təlim-tərbiyə yox, elmi araşdırmalar yox, bəs bu nazirlik nəylə məşğuldur?"

**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında istilik sistemi quraşdırılmamış məktəblər olduğunu dedi:**

- Hörmətli elm və təhsil naziri son brifinqdə dedi ki, məktəblərin isidilməsində vəziyyət qənaətbəxşdir. Deməli, hazırda ölkəmizdə 5745 təhsil müəssisəsi (məktəbəqədər və orta məktəb) var. Onların 508-i dizel yanacağı ilə, 445-i elektrik enerjisi ilə, 2034-ü odunla, 2758-i mavi yanacaqla (qaz) isidilir. Amma istilik sistemi quraşdırılmayan məktəblər də var. Ümumtəhsil məktəblərinin, eləcə də məktəbəqədər təhsil müəssisələri, uşaq bağçalarının istilik sisteminə yanaşma digər obyektlər, yaşayış binaları, idarə və müəssisələrə yanaşmadan fərqli olmalıdır. Təhsil müəssisələrinin isidilməsi ölkə üzrə ümumi payız-qış mövsümünün başlanma tarixi - noyabrın 15-dən olmamalıdır. Çünki iqlim dəyişiklikyi mümkündür, havalar tez soyuya bilər, dağlıq, dağətəyi ərazilərə qar yağır, havalar tez soyuyur. Paytaxtın özündə bəzən havalar tez soyuyur, məktəblərdə istilik sistemi işə düşmür deyə, şagirdlər də soyuqdan donur, müəllimlər də. Hər tədris ilində eyni problem yaşanır, hər il də eyni bəhanələr gətirilir" qazanxana işləmədi, dizel yanacağı olmadı, ümumi problemdir və sair. Ümumi problem təhsil müəssisələrinə sirayət etməməlidir. Bunun üçün də tədris ili ərzində, xüsusən yay tətilində, tədris ili başlamamış qazanxanalar da yoxlanmalıdır, daşıyıcı kəmərlər də, yanacaq ehtiyatının olub-olmaması da. Ehtiyat tədbirləri havalar soyumamış, qar yağmamış görülməlidir. Tədris ilinin əvvəli bu məsələ planlaşdırılmalıdır, oktyabrın ilk ongünlüyündə istilik təchizatının hansı halda olması yoxlanmalıdır ki, havalar soyuyanda uşaqlar soyuq sinif otaqlarında dərs keçməsin. Nazir, nazir müavini, şöbə müdiri... hansı razı olar ki, övladı soyuq otaqda dərs keçsin?! İmkanlı ailələrin övladları istilik problemi olmayan məktəblərə gedir. İmkansızlar soyuqdan donmalıdır?! Valideyn uşağı məktəbə sağlam göndərir, uşaq məktəbdə soyuqlayıb qayıdır. Valideynlər öz cibinin puluyla hesabına məktəblərə odun alırlar, təki sinif otağı qızdırılsın, uşaqlar soyuqdan donmasın. Elm və Təhsil Nazirliyinin başlıca vəzifəsi normal təhsil mühiti yaratmaqdır. Məktəblərdə tədris yox, təlim-tərbiyə yox, elmi araşdırmalar yox, bəs bu nazirlik nəylə məşğuldur? Mövcud qurumun ümdə vəzifəsi təhsil üçün normal şərait yaratmaqdır. Bunu yarada bilmirlərsə, portfellərini götürsünlər, çıxıb getsinlər.

**Məlahət Rzayeva**

# Saakaşvili hələ də ciddi fiqur sayılır

## Ona görə ölüm ayağında olsa da, hələ azadlığa buraxmağa tələsmirlər



**Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvilinin vəkilləri Tbilisi şəhər məhkəməsində vəsatət qaldıraraq onun dərhal azadlığa buraxılmasını tələb ediblər. Vəkillər məhbusun həbslə bir araya sığmayan sağlamaz xəstəliklərinin olduğunu vurğulayıblar, səhhətinin hər gün pisləşdiyini deyiblər.**

Saakaşvili "Vivamed" klinikasına daxil olduqdan sonra 43 kilo arıqlayıb. Onda qızdırma, anareksiya, əzələ, oynaq və sümük ağrıları, əzələ spazmları müşahidə olunub. Amerikalı toksikoloq professor Devid Smit yaydığı 28 noyabr 2022-ci il tarixli hesabatında Mixail Saakaşvilinin ağır metallarla zəhərləndiyini bildirib. Hesabatda deyilib ki, eks-prezidentin saç və dırnaqlarının müayinəsi nəticəsində onun bədənində civə və arsen izləri aşkar edilib. Qeyd edilir ki, bu maddələrin bu cür dozaları dərman müalicəsi nəticəsində orqanizmə daxil ola bilməz. Professorun sözlərinə görə, çox güman ki, bu zəhərli maddələr Mixail Saakaşvilinin orqanizminə həbsdən sonra daxil olub. Smit yazır ki, xəstə müayinə, əlavə araşdırma və müalicə üçün müvafiq tibb müəssisəsinə köçürülməlidir. Bundan əvvəl dekabrın 1-də "Empatiya" mərkəzi də Mixail Saakaşvilinin səhhəti ilə bağlı ekspert rəyini dərc edib. Orada deyilir ki, Saakaşvili həbs olunan zaman "praktiki olaraq sağlam idi" və bu gün ölüm təhlükəsi qarşısındadır. Xalq müdafiəçisi Nino Lomdjariya da Saakaşvilinin hazırda olduğu klinikaya baş çəkib. Onunla birlikdə ora Ombudsman yanında yaradılmış Həkimlər Şurasının üzvləri olan və vaxtaşırı eksprezidentin səhhətinə nəzarət edən həkimlər də gəlib. Həmin həkimlərdən biri Tengiz Tsuladze bunları deyib: "Xəstənin vəziyyəti, fikrimizcə, açıq-aydın ağırdır, məqbul olandan qat-qat artıq çəki itkisi var. Əhəmiyyətli kilo itkisi həyat üçün təhlükəlidir, çox təhlükəlidir". Qeyd edək ki, Saakaşvili ailəsinin, onun komandasının üzvlərinin, müxalifətçilərin və vətəndaş cəmiyyətinin əsas tələbi Saakaşvilinin müalicə üçün xaricə göndərilməsidir. Saakaşvilinin yaratdığı "Vahid Milli Hərəkat" Partiyası da azadlıq tələbi ilə aksiya keçirib. Mitinqə bəzi başqa siyasətçilər də qoşulub. Aksiyanın təşkilatçıları Saakaşvilinin xaricə müalicəyə göndərilməsindən başqa heç bir siyasi tələblərinin olmadığını bildiriblər.

**Gürcüstanın baş naziri İrakli Qaribaşvili isə Saakaşviliyə heç bir güzəşt olmayacağını deyib:** "Müharibə partiyası (Milli Hərəkat), alçaldılmış, satqın liderlərin yaratdığı partiya çox ağır vəziyyətdədir. Onların nə dedikləri məni maraqlandırmır. Gürcüstanda heç kim qanundan kənar heç nəyə qarışa bilməz. Saakaşvilini ölkəyə gətirərək son kartdan istifadə etdilər, bu axmaqlığı etdilər və bunun necə bitdiyini gördük. Onların ideyaları tam fiasko ilə bitdi. Saakaşvili depressiyaya düşüb, mühiti sevmir. Həbsxana mühiti hansı məhbusun xoşuna gəlir? Rati Breqadze çıxıb camaat qarşısında təklif etdi ki, istənilən ölkədən, istənilən klinikadan istənilən həkimi gətirməyə hazırıq. Onlar Gürcüstan müalicə olunmaq istəmirlər. Onların yeganə məqsədi Saakaşvilini azad etməkdir".

Xatırladaq ki, eks prezident Mixail Saakaşvilinin cəzasının təxirə salınması ilə bağlı məhkəmə iclası cümə günü, dekabrın 9-da baş tutacaq.

**"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov "Şərq"ə açıqlamasında bildirib ki, Mixail Saakaşvili hələ də Gürcüstanda ciddi fiqur sayılır. Analitikə görə, Saakaşvili 10 il Gürcüstana rəhbərlik edib, ondan əvvəlki dönəmdə isə ciddi müxalifət liderlərindən olub:** "Saakaşvili siyasi fəaliyyətində böyük imic və dəstək qazana bilib. Qərblə əməkdaşlıqda ciddi imkanlara və potensiala sahib bir lider olub. Hesab edirəm ki, səhhətində problemlər yaşayan sabiq prezident Mixail Saakaşvilinin həbsdə saxlanması Gürcüstan hökumətinin öz qərarı deyil. Məncə, onun həbsdə qalmasının sifarişçisi Rusiyadır. Saakaşvilinin partiyasında da hamının birmənalı onu sevdiyi, dəstəklədiyi deyilə bilməz. Eks prezidentin xaricdə yaşadığı dönəmlərdə onun partiyasına sızıntılar olub. Hazırda partiyada Saakaşviliyə qarşı loyal münasibət olmayan kadrlar var. Qərb üçün isə önəmli olan Saakaşvili deyil. Qərbin istəyi odur ki, onun siyasətinə tərs düşən qüvvələr hakimiyyətdə olmasın. Nəzərə alaq ki, indiki prezident Salome Zurabaşvili həm də Fransa vətəndaşıdır. Onun da Qərb dünyası ilə əlaqələri genişdir. Mövcud vəziyyətdə Saakaşvilinin hökumətə təzyiq göstərmək imkanları çox zəifdir. Keçmiş prezidentin indiyədək həbsdə qalması da bunu göstərir. Hakimiyyət ehtiyat edir ki, Saakaşvilini həbsdən buraxsalar, gələcəkdə başqa problemlər yarada bilər. Lakin istənilən halda Saakaşvilinin ciddi xəstəlikləri varsa, yaxın zamanda azadlığa buraxılma ehtimalı var. Görünür, hələlik prosesləri uzatmağa çalışırlar".

**İsmayıl Qocayev**

# ATƏT-dən etiraf...

## Təşkilat sədrinin Daimi Şuranın və Katibliyin xəbəri olmadan özbaşına regiona missiya göndərməsinə qərar verməsi anlaşılmazdır




**ATƏT oktyabr ayında Ermənistana göndərilən və ilkin olaraq "ehtiyacların qiymətləndirilməsi heyəti" adlandırdıqları qrupun təşkilatla əlaqəsinin olmadığını bildirib.**

Bu qrupun Ermənistana göndərilməsi barədə qərarın ATƏT-in müvafiq qərarverici orqanları və ya katibliyi tərəfindən deyil, fəaliyyətdə olan Sədrin şəxsi təşəbbüsü ilə verildiyi vurğulanıb. Katiblik qeyd edib ki, bu qrupun göndərilməsi üçün ATƏT-in qərarverici orqanı olan Daimi Şura tərəfindən qərar qəbul edilməyib, qrup mandata malik deyil. Habelə onlar üçün təşkilatın büdcəsindən hər hansı bir vəsait xərclənməyib. Heyətin xərcləri büdcədənkənar vəsaitlər hesabına ATƏT-in bəzi iştirakçı dövlətləri tərəfindən fərdi şəkildə ödəndiyi diqqətə çatdırılıb. Göründüyü kimi, Azərbaycan tərəfinin tutarlı səbəblər gətirərək bu məsələdə sərgilədiyi mövqe ATƏT tərəfini bir daha düşünməyə vadar edib. Ekspertlərə görə, bu nəticənin əldə olunmasında Azərbaycan tərəfinin son iki ay ərzində apardığı iş xüsusi rol oynayıb. Xarici İşlər Nazirliyimiz bir müddət öncə bildirmişdi ki, belə bir heyətin göndərilməsi məsələsi ATƏT-in hər hansı kollektiv qərarverici orqanı tərəfindən müzakirə olunmayıb və nəticədə bu barədə heç bir qərar qəbul edilməyib.

**Politoloq Turab Rzayev "Şərq"ə bildirib ki, yayılan etiraf açıqlamasında ATƏT-in müəyyən müddət sonra "yumşalması" hiss olunur. Analitikə görə, təşkilat sədrinin Daimi Şuranın və Katibliyin xəbəri olmadan özbaşına regiona missiya göndərməsinə qərar verməsi anlaşılmazdır:** "Məgər ATƏT sədri qurumu təmsil etmir? Ermənistana göndərilən missiyaya büdcədən vəsait ayrılmaması, səfərin şəxsi vəsait hesabına baş tutması reallığı dəyişmir. Ola bilər, bu, əvvəlcədən belə planlanıb. Rəsmi Bakı açıq şəkildə dəfələrlə ATƏT-in Minsk qrupunun buraxıldığını, fəaliyyətdə olmadığını elan edib. Azərbaycan tərəfi həmsədrlik institutunun ABŞ, Fransa və Rusiya tərəfindən "dirildilməsinə" imkan verməyib. ATƏT də İravanın missiya ilə bağlı təklifini bu formada reallaşdırıb. Yəni etiraz olanda əllərində rəsmi Bakıya təqdim etmək üçün bəhanə saxlayıblar. Halbuki mandat olmazsa, təşkilat sədri də belə bir təşəbbüslə çıxış edə bilməz".

**İsmayıl Qocayev**



# Molla rejimi suç üstündə yaxalanıb

## İran Ermənistana silah hədiyyə etməklə hansı duruma düşdüyünü sərgilədi

**İran oktyabr ayında gizli yolla Ermənistana yerli istehsal olan 600 ədəd raket göndərib. Göndərilən raketlər Ermənistana satılmayıb, hədiyyə kimi, qarşılıqsız verilib. Verilən raketlərin 500 ədədi "Dehlaviyeh", 100 ədədi isə "Almas" tipli tank əleyhinə idarəolunan raket kompleksidir.**

Xatırladaq ki, bir neçə gündür mediada 14 İran vətəndaşının rusiyalı sülhməramlıların müvəqqəti nəzarət etdiyi ərazilərə keçməsi haqqında faktlar yayımlanır. İranın Azərbaycandakı səfirliyi isə hələ də məsələ ilə bağlı heç bir tutarlı cavab verməyib. Ehtimal olunur ki, bu şəxslər vasitəsilə İran sözügedən raketlərin bir hissəsini Qarabağdakı separatçı-terrorçu dəstələrə də ötürüb.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə açıqlamasında deyib ki, molla rejiminin "quyruğu" qapı arasında qalıb. Partiya rəhbərinin sözlərinə görə, İran tərəfi heç vaxt bu qədər acınacaqlı şəkildə rəzil, rüsvay olmayıb:** "Mollalar bir yandan Ermənistana raket göndərərək revanşist-təcavüzkar ölkəni yenidən silahlandırmağa çalışır. Digər tərəfdən isə İran vətəndaşları, yaxud diversantları Qarabağa gəlirlər. 14 nəfər iranlı ilə bağlı araşdırmalar bitməmiş, rəsmi Tehran Xankəndiyə 13 nəfərdən ibarət daha bir təxribatçı qrup göndərir. Beləliklə, son bir həftə ərzində rusiyalı sülhməramlıların postundan Azərbaycan ərazisinə iki qrupdan ibarət 27 nəfər İran vətəndaşı daxil olub. Terrorçuluğa, təxribatçılığa himayəçilik edən belə bir ölkəyə "İslam Respublikası" demək nə dərəcədə düzgündür? Kim ki, İranı islam dövləti hesab edir, demək ki, o insanın mübarək islam dinindən anlayışı, xəbəri yoxdur. Maraqlıdır ki, rəsmi Bakı iranlı təxribatçıların ərazimizə keçməsinə qəti etirazını bildirsə də, nə İran, nə də onları ərazilərimizə buraxan sülhməramlılar məsələyə aydınlıq gətirməyiblər. Adi günlərdə Azərbaycanın əleyhinə müxtəlif diplomatlarının, deputatlarının və generallarının vasitəsilə hədə, təhdid dolu bəyanatlar, açıqlamalar verən İran tərəfi indi israrla susmağına davam edir".

*Ə.Hüseynov vurğulayıb ki, molla rejimi suç üstündə yaxalandığına görə artıq nə deyəcəyini də bilmir:* "Əllərində Azərbaycan tərəfini qane edə biləcək heç bir tutarlı məntiq və izah imkanları, istinad nöqtələri yoxdur. Lakin rəsmi Bakı sonuncu maskaları da düşən İranın yaxasından əl çəkməyəcək. Molla rejimi həm Ermənistanı silahlandırmağına, həm də ərazilərimizə diversant göndərməyinə mütləq aydınlıq gətirməlidir".

**İsmayıl Qocayev**

# Kreml görüş yerini dəyişmək istəmir

## Elxan Şahinoğlu: "Rusiya ərazisindəki müzakirələr heç vaxt Azərbaycanın xeyrinə olmayıb"



**Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərin suallarını cavablandırıb. D.Peskovun açıqlamasına görə, Rusiya Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüşünün öz ərazisində keçirilməsi üçün lazımi yardımı göstərməyə hazırdır.**

Bir müddət öncə Ermənistan Xarici İşlər Nazirliyi əmin edib ki, İrəvan iki liderin görüşünə hazırdır - lakin dördtərəfli formatda, Fransa Prezidenti Emmanuel Makron və Avropa Şurasının Sədri Şarl Mişelin iştirakı ilə.

Azərbaycan Prezidenti İlham Əliyev isə Brüsseldə Paşinyanla dekabra planlaşdırılan görüşün belə formatda baş tutmayacağını bildirib.

**Vəziyyəti "Şərq"ə şərh edən politoloq Elxan Şahinoğlu qeyd edib ki, Kreml təşəbbüsü ələ almağa çalışır:** "İl ərzində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Brüsseldə 4 görüş keçirilib, 5-cisi noyabrda nəzərdə tutulmuşdu, olmadı, dekabra təxirə salındı. Ancaq Paşinyanın "Görüşdə Fransa Prezidenti Emmanuel Makron da iştirak etsin" tələbi Brüssel görüşünü sual altına qoyub.

Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun Moskvaya dəvət edilməsinin səbəblərindən biri də bu idi.

Ceyhun Bayramov Moskvada rusiyalı həmkarı Sergey Lavrovla birgə mətbuat konfransında Azərbaycan və Ermənistan liderlərinin ilin sonuna qədər görüşə biləcəyini istisna etmədiyini söylədi, ancaq məkan göstərmədi. Lavrovun Bayramovla görüşünün ardından Kreml məkan yerini göstərdi: "Görüş Rusiyada keçirilsin". Rusiya ərazisindəki görüş və müzakirələr heç vaxt Azərbaycanın xeyrinə olmayıb".

**Aygün Tahir**



# Misir Qasımlının Azərbaycana ekstradisiyası mümkündür

## Əhməd Şahidov: "Haqsızlığı Zelenskinin diqqətinə çatdırmaqda maraqlı olmalıyıq"

**Ukrayna məhkəməsi Azərbaycan vətəndaşı 29 yaşlı Misir Qasımlı və onun dostu Sübhan Quliyevə hökm oxuyub. Dekabrın 6-da keçirilən məhkəmə prosesində onlar adam oğurluğu, xuliqanlıq və silah saxlamaqda təqsirləndirilərək 8 il azadlıqdan məhrum ediliblər.**

Qeyd edək ki, 29 yaşlı Misir Qasımlı Vətən müharibəsində iştirak edib. O, "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub.

44 günlük Qarabağ - Vətən müharibəsi iştirakçısının qanunsuz həbsi Azərbaycan ictimaiyyətini hiddətləndirib.

İddialara görə, M.Qasımlı Vətən müharibəsi zamanı, işlətdiyi "İrəvan Azərbaycandır" sözünə görə Ukraynada erməni əsilli İspaniya vətəndaşı ilə etdiyi mübahisədə şərlənərək həbs olunub. Bu səbəbdən də ölkə ictimaiyyətinin böyük əksəriyyəti sosial şəbəkə hesablarında Azərbaycan hökumətini erməni tərəfindən şərlənərək 8 il azadlıqdan məhrum edilən Misir Qasımlıya dəstək olmağa, Ukrayna hökuməti qarşısında onun qanunsuz həbsinə son qoyulması ilə məsələ qaldırmağı tələb edirlər.

Azərbaycan Respublikasının Ukraynadakı səfirliyi Misir Qasımlı və Sübhan Quliyevin məhkəmə işi və həbsi məsələsi ilə bağlı açıqlama yayıb.

Səfirlikdən verilən xəbərdə bildirilib ki, 6 dekabr 2022-ci il tarixində Azərbaycan Respublikası vətəndaşları Misir Qasımlı və Sübhan Quliyev Ukraynanın Kiyev vilayəti Obuxov rayon məhkəməsinin qərarı ilə 8 il müddətinə azadlıqdan məhrum olunublar.

Bildirilib ki, Böyük Britaniya vətəndaşının şikayəti əsasında Ukrayna Cinayət Məcəlləsinin bir sıra maddələri üzrə cinayət işində təqsirləndirilən Misir Qasımlı və Sübhan Quliyev 2021-ci ilin 9 iyun tarixindən saxlanılıb: "Misir Qasımlının ailə üzvləri səfirliyə məlumat verdikdən sonra səfirlik məsələ üzrə zəruri tədbirlər həyata keçirib. Misir Qasımlının ailə üzvləri və şəxsən özü ilə telefon əlaqəsi saxlanılıb, vəkili və qohumları ilə dəfələrlə görüş təşkil olunub.

İttihamların erməni əsilli şəxslərin sifarişi əsasında olduğu, istintaq zamanı və məhkəmə prosesində bir sıra qərəzli məqamların, eləcə də hüquq pozuntularının mövcudluğu barədə səslənən fikirlərə aydınlıq gətirilməsi məqsədilə səfirlik tərəfindən müvafiq iş aparılıb. Bu məlumatlardan narahatlığın əks olunduğu müraciətlər səfirlik tərəfindən Ukrayna Xarici İşlər Nazirliyinə ünvanlanıb. Ümumilikdə, məsələ üzrə Ukrayna XİN-ə 10 nota, digər qurumlara çoxsaylı məktublar göndərilib, proses səfirliyin diqqət mərkəzində saxlanılıb. Səfirlik məsələ barədə məlumat aldıqdan sonra bütün iclaslarda (səfirliyə məlumat verilmədiyi üçün bir apellyasiya iclası istisna olmaqla) iştirak edib.

Hazırda müdafiə olunan tərəf məhkəmə qərarı ilə bağlı müvafiq apellyasiya şikayətinin verilməsi istiqamətində iş aparır.

Səfirlik məhkəmənin işinə və hüquqi prosedurlara müdaxilə olmadan prosesin ədalətli şəkildə həyata keçirilməsi məqsədilə, qanun çərçivəsində bütün mümkün zəruri tədbirlər görməkdə davam edir".

**Hüquq müdafiəçisi, Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri Əhməd Şahidov "Şərq"ə açıqlamasında Misir Qasımlıya qarşı edilən haqsızlığın kifayət qədər ağrılı məsələ olduğunu deyib:**

"İkinci Qarabağ müharibəsində könüllü savaşan, vətənpərvər qazimizin Ukraynada ermənilər tərəfindən şərlənərək 8 il həbs cəzasına məhkum edilməsinə çox təəssüflənirəm. Bu gün torpaqlarının ərazi bütövlüyü uğrunda Rusiya ordusuna qarşı döyüşən Ukrayna hökuməti Misirlə bağlı keçirilən məhkəmə prosesində onun milli ruhda olmasını və ona qarşı qurulan oyunun da məhz bu səbəbdən olduğunu nəzərə almalı idi. Ukrayna ilə Azərbaycan arasında ekstradisiya məsələsini tənzimləyən müqavilələr var. Həmin müqavilərə əsaslanaraq Misir Qasımlının Azərbaycana ekstradisiyası mümkündür. Ancaq bundan sonra onun əfv olunması və yaxud da cəzasının yüngülləşdirilməsi ilə bağlı məsələyə baxıla bilər. Məhkəmə qərarı yeni açıqlanıb. Bundan sonrakı proseslərlə Azərbaycan tərəfi bu barədə danışıqlar aparacaq. Nəzərə almalıyıq ki, Ukrayna dövləti müharibə şəraitində olduğu üçün dövlət qurumlarının fəaliyyəti də iflic durumdadır. Hazırkı mərhələdə Misir Qasımlının vəziyyəti ilə bağlı danışıqlara başlamaq da çətindir. Faktiki olaraq Ukraynadakı Azərbaycan səfirliyinin fəaliyyəti də dondurulmuş vəziyyətdədir. Amma hüquq müdafiəçiləri və media nümayəndələri olaraq biz bu məsələni daimi gündəmdə saxlamaqla Misir Qasımlıya qarşı edilən haqsızlığın Ukrayna rəhbərliyinin, xüsusən də Prezident Volodimir Zelenskinin diqqətinə çatdırmaqda maraqlı olmalıyıq. Aidiyyəti qurumlar və ya şəxslər bu məsələnin Ukrayna ilə Azərbaycan arasındakı dostluq münasibətlərinə xələl gətirdiyinin fərqinə varmalıdır. Ukraynanın Bakıdakı səfirliyi qarşısında aksiyalar keçirməklə məsələni Ukrayna dövlətinin gündəminə daşımaq olar".

**Şəymən Bayramova**

# Orta Dəhliz İsrail üçün cəlbedici görünür

## Əgər Təl-Əviv bu platformanı dəstəkləyərsə ərəb dünyası və Azərbaycanla əlaqələri stimullaşdıraraq İrana qarşı duruşunun uzunmüddətli olmasına şərait yarada bilər

**"Rusiya-Ukrayna müharibəsi davam etdikcə, Çindən başlayan və Avropa ilə ticarət marşrutunda şah damar roluna iddialı Orta Dəhlizlə əlaqədar müzakirələr və təkliflər paketinin həcmi genişlənir".**

**Bu barədə "Şərq"ə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, Azərbaycan, Türkiyə və Qazaxıstan, Gürcüstan Orta Dəhlizin mühərrikinin vasitəçi silindrləridir, yəni bu ölkələr üzərindən Avropaya çıxış çox əhəmiyyətlidir:** "Orta Dəhlizin diversifikasiyası üçün Azərbaycan, Türkiyə və Qazaxıstan Çinin strateji xeyir-duası ilə Türkmənistanı da prosesə qoşmaq üçün intensiv iş aparırlar. Qısası, Çinlə Avropanı birləşdirəcək dəmiryolları, yük və bərə sistemlərinin inkişafı üçün cəlbedici ideyalar masadadır. Bunlar iqtisadi layihələr olsa da, böyük güclər üçün geosiyasi əhəmiyyət daşıyır. Avropa İttifaqı Çinlə münasibətlərdə Pekinə iqtisadi-ticari tərəfdaş kimi yanaşır. Bu, Şərq ölkəsini strateji rəqibi kimi dəyərləndirən ABŞ üçün sərfəli deyil. Çünki ABŞ Çinin qüdrətlənməsinin səbəbləri sırasında beynəlxalq ticarət marşrutlarının rolunu başa düşür. Avropa İttifaqı üçün isə əsas məsələ iqtisadi əməkdaşlıqla meydanda qalmaqdır. Orta Dəhliz ABŞ-nin Yaxın Şərqdəki müttəfiqi İsraili də cəlb edən bir platformaya çevrilmək potensialına malikdir. Hərçənd ki, Təl-Əviv üçün iqtisadi əlaqələri bu vasitə ilə inkişaf etdirmək prioritet deyil. Rusiya-Ukrayna münaqişəsinin həll edilməməsi fonunda geosiyasi əhəmiyyətdə çəkisi artan Orta Dəhliz İsrailə ən azı iki səbəbdən lazımdır".



*Ekspert vurğulayıb ki, İsrail ərəb dünyası ilə əlaqələrdə yeni səhifələr çevirir və praqmatik əməkdaşlıq formatı ilə konfiqurasiya qurur:* "Ancaq onun Fələstin-İsrail münaqişəsinin mirası olaraq ərəb dünyası ilə dəmiryolu bağlılığı yoxdur. Əgər İsrail Orta Dəhlizi dəstəkləyərsə və ona qoşularsa, bu, Təl-Əvivin ərəb açılımı siyasətini gücləndirməyə kömək edəcək. İkincisi, dünya nizamının məhvərindən çıxarılması üçün kəskin qarşıdurmaların başlandığı bir zamanda İrana qarşı qlobal layihələr işə salınıb ki, bu da İsrail üçün göydəndüşmə bir dəyərdir. Həmin aspekt üzrə İsrail ərəb dünyası və Azərbaycanla əlaqələri stimullaşdıraraq İrana qarşı duruşunun uzunmüddətli olmasına şərait yarada bilər. İsrailin Azərbaycanla yanaşı, Çin, Qazaxıstan, Türkiyə və Gürcüstanla da yaxşı əlaqələri onun Orta Dəhlizdəki iştirakını şərtləndirən səbəblər zəncirindən biridir. Azərbaycanla bağlı məqamları ayrıca qeyd etmək yerinə düşər, Orta Dəhliz çərçivəsindəki mümkün perspektiv ikitərəfli münasibətlər Bakı-Təl-Əviv əməkdaşlığını strateji tərəfdaşlıqdan strateji müttəfiqlik səviyyəsinə qaldıra bilər. Belə olarsa, İsraildən Azərbaycana gələn hərbi-texniki dəstəyin həcmi arta bilər ki, bu da Bakıya strateji müdafiə qabiliyyətini gücləndirən dəstək olacaq. Ancaq etiraf etmək lazımdır ki, İsrailin Orta Dəhlizə qoşulması üçün uzunmüddətli işlər görülməli, infrastruktur qurulmalıdır ki, bu da xeyli vəsait tələb edir. Hər halda danışıqlar masasında İsrailin dəhliz məntiqinə qoşulmasının özü belə, regional təhlükəsizliyin faydalı iş əmsalına xeyir gətirən amil kimi nəzərdən keçirilməlidir".

**İsmayıl**

# Prosesi qəlizləşdirirlər

## Qabil Hüseynli: "Ermənistanın üçtərəfli sazişin 4 müddəasını yerinə yetirməyəcəyi təqdirdə normal sülh danışıqlarından söz gedə bilməz"



**Ermənistan xarici işlər naziri Ararat Mirzoyan ilin sonuna qədər İrəvan və Bakı nümayəndələrinin yeni görüşünün keçirilə biləcəyini istisna etmir.**

O, ölkə parlamentində çıxışı zamanı bildirib ki, konkret razılaşmalar yoxdur, amma düşünürəm ki, belə bir görüş ilin sonuna qədər baş tutacaq: "Sülh danışıqları çərçivəsində müzakirələr fəal şəkildə davam edir. Ermənistan tərəfi Bakının sülh müqaviləsi ilə bağlı növbəti təkliflərini alıb və artıq cavab hazırlayır. Tərəflərin yanaşmaları hələ də bir-birindən uzaqdır, lakin Ermənistan və Azərbaycan onları yaxınlaşdırmağa çalışır".

**İrəvanın sülhə maraqlı olmadığını deyən sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Şərq"ə vurğulayıb ki, onların 10 Noyabr razılaşmasının müddəalarını yerinə yetirməməsi prosesi daha da qəlizləşdirir:** "Ermənistanın XİN rəhbəri həmin görüşün keçirilməsi ehtimalını elan etdikdən sonra, İrəvanın 2021-ci ildə imzalanmış üçtərəfli sazişin 4 müddəasını yerinə yetirməyəcəyini bildirib. Yəni onlar Qarabağda qalan erməni silahlı qüvvələrini çıxarmaq niyyətində deyil. Buna səbəb kimi isə Qarabağda qalan qruplaşmanın qondarma "Artsax"ın qoruyucusu olduğu və onların Azərbaycanda yaşayan ermənilərin hüquqlarını qoruması göstərilir.

Ermənistanın üçtərəfli sazişin 4 müddəasını yerinə yetirməyəcəyi təqdirdə isə normal sülh danışıqlarından söz gedə bilməz. Beləliklə, Azərbaycanın suveren ərazisindən erməni yaraqlılarının çıxarılması məsələsi yenidən problemli vəziyyətə gətirilir.

Hətta bu hadisə yeni müharibəyə də səbəb ola bilər. Ümumiyyətlə, bir tərəfdən sülh deyib, digər tərəfdən buna qarşı addımlar atan tərəflə müqavilənin imzalanması mümkün deyil".

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**



# 10 dekabr Ümumdünya İnsan Hüquqları Günüdür

## İnsan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur

**. İrqindən, dinindən, yaşından və cinsindən asılı olmayaraq Yer üzündə hər bir insanın hüquqları var. İnsan hüquqlarının əsas mahiyyəti ondan ibarətdir ki, bütün insanlar eyni hüquqa malik olmalıdırlar. Hər kəsin doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqları və azadlıqları var. Bu hüquq və azadlıqlar şəxsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə edir.**

İnsan hüquqları ləyaqət, ədalət, bərabərlik, hörmət və müstəqillik kimi ortaq dəyərlərə əsaslanır. Bu dəyərlər qanunla müəyyən edilir və qorunur. Beynəlxalq ictimai hüquqda onları təsdiqləyən ən məşhur sənəd BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir. Bəyannamədə deyilir: ”Hər bir insan onun mənsub olduğu irqindən, cinsindən, dilindən, dinindən, siyasi və digər baxışlarından, milli və sosial mənşəyindən, mülkiyyətindən, doğum və digər hallarından asılı olmayaraq təmin olunmuş insan haqlarına və azad olmaq hüququna malikdir”.

”Bütün insanlar azad və bərabərdir” tezisinə əsaslanan Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası 10 dekabr 1948-ci ildə həmin günü Ümumdünya İnsan Hüquqları Günü olaraq qəbul edib.

Həmin vaxtdan 10 dekabr dünyada Ümumdünya İnsan Hüquqları günü kimi qeyd olunur.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra beynəlxalq birliyin tamhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçib. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu müstəqil və demokratik dövlət quruculuğu kursu sürətlə yeniləşən dünyanın tələblərinə cavab verir. Dövlətin inkişaf konsepsiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha da təkmilləşdirilib, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə mütərəqqi dəyişikliklərin edilməsi nəticəsində ölkəmizdə yüksək inkişaf dinamikasına nail olunub. Bu gün hər bir cəmiyyətin və dövlətin inkişafı demokratiya və insan hüquqlarına hörmət olmadan mümkün deyil. Demokratiya, inkişaf, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olan və bir-birini şərtləndirən amillərdir. Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur.

Ölkəmizdə həyata keçirilən sosial islahatlar xalqın maddi rifahının yaxşılaşdırılmasına, vətəndaşların iqtisadi və sosial hüquqlarının müdafiəsinə zəmin yaradır. Hər bir şəxsin həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları sahəsində 20-dək beynəlxalq konvensiya və sazişlərə qoşulub.

1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını ali dəyər kimi qiymətləndirərək, onlara hörməti, insan hüquq və azadlıqlarının qorunmasını qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi kimi müəyyənləşdirib.

Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ-hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil problemləri üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər ölkəmizdə insan hüquqlarına verilən dəyərin əsas göstəricisidir.

Qeyd edək ki, 10 dekabr ”Ümumdünya İnsan Hüquqları Günü” ilə əlaqədar Baş Prokurorluqda ”İnsan hüquqlarının əsas təminatları” mövzusunda konfrans keçirilib.

Konfransda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Milli Məclisin, həmçinin hüquq-mühafizə orqanlarının, insan hüquqları üzrə təsisatların yüksəkvəzifəli şəxsləri, Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası və digər beynəlxalq təşkilatların, vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatlarının və media nümayəndələri iştirak edib.

Qeyd edilib ki, Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müasir dövrün çağırışları və cəmiyyətin inkişafından irəli gələn tələblər nəzərə alınmaqla aparılmış məqsədyönlü tədbirlər insan hüquq və azadlıqlarının müdafiəsində səmərəliliyi artırmaqla hüquq müdafiə mexanizmlərinin təkmilləşdirilməsinə, əhalinin müxtəlif qruplarının hüquqlarının qorunmasının gücləndirilməsinə zəmin yaradıb.

Konfransda prokurorluq orqanlarının vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin edilməsində digər qurumlarla əlaqəli şəkildə üzərlərinə düşən vəzifələri layiqincə icra etdiyi bildirilməklə bu sahədə birgə əməkdaşlığın önəmi vurğulanıb.

Həmçinin İnsan hüquqlarının müdafiəsi üçün Avropa Şurası alətləri, qaçqınlar, məcburi köçkünlər və insan hüquqları, Vətən müharibəsindəki qələbə kontekstində insan haqlarına yeni baxış, insan hüquqlarının təminatına xidmət edən məhkəmə-hüquq islahatları, insan hüquqlarının təminatında məhkəmə hakimiyyətinin, o cümlədən prokuror nəzarətinin rolu, insan hüquq və azadlıqlarının müdafiə mexanizmlərinin fəaliyyətində vəkillərin yeri və rolu, insan hüquqlarının təmin edilməsində konstitusiya nəzarətinin, habelə Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin rolu, Azərbaycanda dayanıqlı inkişafın təmin olunmasında qadın və uşaq hüquqlarının əhəmiyyəti, uşaq hüquqlarının təmin edilməsində prokurorluq orqanlarının rolu, cinayət prosesinin ayrılmaz tərkib hissəsi kimi azadlıq hüququnun təmin edilməsi mövzularında çıxışlar edilərək, ətraflı müzakirələr aparılıb.

İnsan hüquqlarının müasir dünyada ümumbəşəri mədəniyyətin mühüm tərkib hissəsi olduğunu xatırladan Baş prokuror Kamran Əliyev Azərbaycanın insan hüquqları ilə bağlı çoxsaylı beynəlxalq sənədlərə qoşulmasından danışıb: ”Bütün insanların bərabərliyinin insanlara bəxş olunmuş ləyaqətə əsaslandığını təsbit edən Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və ”İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasında hər bir demokratik dövlət tərəfindən tanınmalı və müdafiə edilməli olan fundamental insan hüquqlarının və əsas azadlıqların dairəsi müəyyən olunub. İnsanların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq onların hüquq və azadlıqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasını öz öhdəsinə götürüb”.

K.Əliyev qeyd edib ki, Azərbaycanda beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycan Respublikasının əsas qanunu olan Konstitusiya qəbul edilib: ”Vətəndaş cəmiyyətinin formalaşdırılması, yeni iqtisadi kursun müəyyənləşdirilməsi, Avropa yönümlü inkişaf strategiyasının seçilməsi ilə bu gün də davam edən inkişafın təməlini qoymuş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik siyasətinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikada həyata keçirilən müasir məzmunlu və gələcəyə istiqamətlənmiş genişmiqyaslı islahatlar nəticəsində ölkə həyatının bütün sahələrində yüksək nəticələr əldə edilib, müstəqilliyimizin və suverenliyimizin əsasları daha da möhkəmləndirilib, yüksək sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunmaqla hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesləri yeni müstəviyə qaldırılıb, dünya birliyinə inteqrasiya dönməz xarakter alıb”.

Baş prokurorun müavini Heydər Məmmədov isə deyib ki, Baş Prokurorluq tərəfindən təxribatçı erməni silahlı birləşmə üzvlərinin əsir və girov götürülmüş azərbaycanlılara qarşı törətdikləri cinayətlərə görə beynəlxalq hüquq normalarının tələblərinə uyğun olaraq məsuliyyətə cəlb olunması istiqamətində əhəmiyyətli işlər görülüb: ”30 il öz doğma torpaqlarından məcburi köçkün düşmüş vətəndaşlarımızın pozulmuş hüquqlarının bərpa edilməsi istiqamətində addımlar atılır. Həmçinin onlara dəymiş maddi və mənəvi ziyanın ödənilməsi, eləcə də erməni vandalları tərəfindən dağıdılmış tarixi-mədəni, dini abidələrimizin qiymətləndirilməsi, ümumilikdə işğal nəticəsində respublikamıza vurulmuş ziyanın hesablanması, eyni zamanda təxribatçı erməni hərbi qulluqçularının və qanunsuz silahlı birləşmə üzvlərinin əsir və girov götürülmüş soydaşlarımıza qarşı törətdikləri cinayətlərə görə cinayət prosessual qanunvericiliyin yaratdığı imkanlar çərçivəsində və beynəlxalq hüquq normalarının tələblərinə uyğun olaraq məsuliyyətə cəlb olunması istiqamətində əhəmiyyətli işlər görülüb”.

H.Məmmədov bildirib ki, son iki il yarımdan artıq müddət ərzində Baş prokuror Kamran Əliyevin peşəkar rəhbərliyi ilə prokurorluqda aparılan müasir dövrün tələblərinə, vətəndaşlarımızın hüquqlarının qorunmasına yönələn genişmiqyaslı islahatlar nəticəsində prokurorluq cinayət təqibinin həyata keçirilməsi zamanı insanların hüquqlarının qorunması istiqamətində mühüm işlər görülüb.

Konfransda çıxış edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Prezident İlham Əliyevin I Qarabağ müharibəsinin nəticələrini beynəlxalq gündəliyə daxil etməkdə israrlı olduğunu deyib.

Deputatın sözlərinə görə, Baş Prokurorluq son illər yeni obrazda Azərbaycan xalqının qarşısına çıxır, ictimai nüfuz və etibar qazanır: ”Bu qurumun xüsusilə II Qarabağ müharibəsi dövründə hüquq səngərində göstərdiyi peşəkarlıq döyüş meydanlarında aparılan əməliyyatlar qədər vacib idi. Baş Prokurorluğun Ermənistana casusluqda ittiham olunan şəxslərlə bağlı uzun illər davam edən, müxtəlif informasiya vasitələrində dövlət və ordu əleyhinə çevrilən əməllərə obyektiv və qanuni qiymət verilməsi üçün dövlət başçısının tapşırığı ilə xüsusi komissiyanın yaradılması və hüquqi düyünə salınan işgəncə cinayətlərinə yenidən qiymət verməsi mühüm hadisə idi. Əlbəttə, hərbi sistemdə mövqe tutan şəxslərin, o cümlədən həmin əməllərə anındaca qiymət verməli olan istintaq qrupunun və hakimlərin ağır mirası indi yüzlərlə ailənin, cəmiyyətin ədalətli qərarı ölkə rəhbərindən gözləməsinin başlıca səbəbidir. Prezidentin etimadını itirən, rütbəsindən və mövqeyindən asılı olmayaraq, hər kəsə qarşı güzəşt limiti bitib”.

**Şəymən Bayramova**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Şəhid və qazi ailələrinə dəstək davamlı olacaq

## Elman Məmmədov: “Hazırda hər birimiz bu qayğını görürük”

**”Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən etibarən dövlətimiz şəhid ailələri, müharibə əlilləri, veteranlara qayğı, diqqət göstərib”.**

**Bu sözləri ”Şərq”ə millət vəkili Elman Məmmədov ”Gələn il yanvarın 1-dək uçota alınacaq müharibə əlilləri və şəhid ailələrinin mənzillə təmin edilməsinə münasibət bildirərkən deyib.** Onun sözlərinə görə, Prezident İlham Əliyev də bu xətti, siyasəti yüksək səviyyədə davam etdirir: ”Bu həssas məsələ ölkə liderinin fəaliyyəti dövründə həmişə gündəmdə olub, diqqətdə saxlanılıb. Hazırda da hər birimiz bu qayğını görürük. İlin sonuna yaxın dövlət başçımızın imzaladığı sərəncam da bunu bir daha təsdiq edir. Növbəti dəfə şəhid ailələri, müharibə əlillərinə mənzillərin, avtomobillərin verilməsi, müalicələrinə kömək olunması, işlə təminatı diqqət mərkəzindədir. Aparılan proses daim davam etdiriləcək. Bu kateqoriyadan olan insanlarımız həmişə dövlətimizin qayğısı ilə əhatə olunacaq”.

**Sücayət Mehti**

# Hansı məntiqlə Şuşada kazino açmaq olar?

## Kərim Kərimli: “Ola bilər, kimlərsə Qarabağ adından məkrli istifadə edib pul qazanmaq istəyirlər”

**Dövlət Turizm Agentliyi Şuşa şəhərinə turizm məqsədli səfərlərin təşkil edilməsi üçün işləri yekunlaşdırmaq üzrədir. ”Report” xəbər verir ki, bunu Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirib. O, bu barədə rəhbərlik etdiyi qurumun və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Bakıda keçirilən “Azərbaycan Turizm Sammiti”ndə danışıb.**

“Vətəndaşlarımız digər yerlərə olduğu kimi Şuşaya da turizm məqsədli səfərlər edə biləcəklər”, - deyə o qeyd edib. “Qarabağın turizm potensialının öyrənilməsi, reallaşdırılması, tanıdılması üçün çoxistiqamətli tədbirlər icra olunur. Bu ilin mart ayında Tərtər rayonunun Suqovuşan kəndində Prezidentin iştirakı ilə turizm kompleksinin təməli qoyuldu. Eyni zamanda Ağdamda tarixi Şahbulaq qalası ətrafında turizm üzrə ilkin rekreasiya infrastrukturu qurulub. Şuşa şəhərinin və Daşaltı qəsəbəsinin, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcərin turizm imkanlarının qiymətləndirilməsi aparılıb, müvafiq inkişaf strategiyaları və fəaliyyət planlarına inteqrasiya edilib”, - deyə sədr əlavə edib.

İşğaldan azad edilmiş Qarabağda və ətraf bölgələrdə abadlıq, quruculuq işləri sürətlə davam edir. Turizm infrastrukturunun qurulması da görülən işlərin mühüm bir hissəsidir. Lakin bəzən ayrı-ayrı şəxslər tərəfindən nə məntiqə sığan, nə də qulağa xoş gələn təkliflər səslənir. Bunlardan biri də işğaldan azad edilmiş ərazilərdə kazinoların fəaliyyətinin və mərc oyunlarının təşkilidir. Kazinoların açılmasını “məsləhət görənlər” bunun turist axınına, iqtisadi inkişafa müsbət təsir edəcəyini, büdcəyə külli miqdarda gəlir daxil olacağını iddia edir. Qonşu Gürcüstanı da “örnək” gətirirlər ki, Tbilisidə kazinoların fəaliyyətinə rəsmi icazə verilməsi hətta pandemiya dövründə ölkənin gəlirlərinin artmasına səbəb oldu. Bizim bəzi kazino həvəskarları da “şəhid qanı ilə alınmış torpaqlarda kazino açmaq utancvericidir” deyənləri populizmdə günahlandırır, “bu pullar həmin rayonlarım büdcəsinə gəlir gətirəcəksə, niyə də olmasın? Bu pullarla işğaldan azad edilmiş əraziləri qısa müddətdə bərpa edə bilərik” söyləyərək ağla zərər açıqlamalarla çıxış edirlər. Guya ki, ölkəmizin maddi sərvətləri bitib-tükənib, büdcəmiz bom-boşdu, ümid qalıb kazinolardan əldə ediləcək haram pullara?! Əvvəla onu qeyd etməliyik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə ”Böyük Qayıdış”a dair I Dövlət Proqramı” təsdiqlənib. Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərin dayanıqlı inkişafına nail olunması məqsədilə müvafiq qurumlara lazımi tapşırıqlar əksini tapıb. Və Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə kazinoların açılmasına dair bircə söz, ifadə belə yoxdur. Deməli, kazinoların açılması dövlət başçısının iradəsindən kənardır. Bunu hansısa işbazlar, çirkli yollarla sərvət əldə edənlərin könlü istəyir. Könüllərindən keçir ki, Şuşada, Ağdamda kef eləyib, haram yolla qazandıqları pulları elə o cür də haram yolla kazinoda xərcləsinlər. Torpaqların müqəddəsliyinə xələl gətirsinlər.



“Bu başqa məsələ, amma imkan versinlər, biz qayıdaq, sonra kazino “gələr”

**Yazıçı-publisist, əslən şuşalı jurnalist Kərim Kərimli “Şərq”ə açıqlamasında kazino həvəskarlarının “məntiqinə” qarşılıqlı məntiqlə cavab verdi:**

- Prinsip etibarilə müasir dünyada qanunla qadağan olunmayan fəaliyyətlərin əleyhinə deyiləm. Amma bir neçə haşiyə çıxmalıyam. Birincisi, niyə məhz Qarabağda, işğaldan azad edilmiş ərazilərdə kazino açılmalıdır? Kazino hansısa ərazi vahidinin büdcəsinə külli miqdarda gəlir gətirəcəksə, niyə, məsələn, Mingəçevirdə açılmır, gənclər şəhəri Sumqayıtda, ya paytaxtın özündə açılmır? Büdcə korluğu çəkən o qədər rayon, bölgə var ki. Hansı məntiqdən çıxış edərək məhz işğaldan azad edilmiş rayonlarda, Ağdamda, Şuşada açılmasını istəyirlər? Büdcə büdcədir, harda açılır açılsın, əldə olunan gəlir işğaldan azad edilmiş ərazilərə xərclənsin də. Hamımız, bütün ölkə ərazilərimizi, dağıdılmış şəhərlərimizi bərpa etmək üçün çalışmırıqmı?! İkincisi, nə Şuşanın, nə Ağdamın, nə də Qarabağın başqa bölgələrinin tanıdılması üçün kazinoya ehtiyacı yoxdur. Şuşa o günə qalıb ki, kazino hesabına tanınacaq, kazinoya görə ora axın olacaq? Bu, nə məntiqdir? Nədir, demək istəyirlər ki, Şuşanın Qafqazın konservatoriyası adlanmasından heç nə əldə etmədik, bəlkə “Qafqazın Las-Veqası” olar, bunun hesabına varlanar, tanınar?! Biabırçılıqdı bu! Üçüncüsü, əhali hələ doğma yurduna qayıtmayıb. Əhalinin köçündən əvvəl bölgədə kazinoların kök atması hansı məntiqə söykənir, düşünmək belə insanı incidir, alçaldır. Hazırda bütün qüvvələr, dövlətin bütün resursları əhalinin doğma yurdlarına qayıdışına sərf olunmalıdır. Əhali qayıtsın, evlər tikilsin, məskunlaşma prosesi sürətlənsin, sonra kazino barədə düşünərlər. Bir də ki, əhalinin qayıdışına əsas maneə ərazilərin minalanmasıdır. Deyirlər təhlükə var, aşkarlanmamış, partlamamış sursatlar təhlükəlidir. Bəs kazinolara gələnlər üçün təhlükəli olmayacaq?

**K.Kərimli qeyd etdi ki, Şuşanın kazino ilə məşhurlaşmağa ehtiyacı yoxdur, bəlkə kazinonu Şuşanın hesabına populyarlaşdırmaq, yayğınlaşdırmaq istəyirlər, bu başqa məsələ:**

- Şuşa kazinodan başqa hər nəylə desən məşhurdu. Eləcə də bütün cümlə Qarabağ. Təbiəti, təbii sərvətləri, maddi-mədəni xəzinəsi, mədəniyyəti, elmi, təhsili, səhiyyəsi, ictimai-siyasi xadimləri. Şuşanın hər şeyi var. Bircə kazinosu çatmır, onu da açmaq istəyirlər. Ola bilər, kimlərsə kazinonu Şuşanın, ümumilikdə Qarabağ adının hesabına məşhurlaşdırmaq, Qarabağ adından məkrli istifadə edib pul qazanmaq istəyirlər, bu başqa. Amma imkan versinlər, biz qayıdaq, sonra kazino “gələr”.

**Məlahət Rzayeva**

# Ulduzlu hotellərin qiyməti "ulduza çatır"

## Nazim Bəydəmirli: “Ona görə də qiymətlər optimallaşmır”

**2023-cü ilin astanasındayıq. Həmişə olduğu kimi Yeni il ərəfəsində vətəndaşlar bayramı və istirahət günlərini müxtəlif bölgələrimizdə, xüsusən də hotellərdə keçirməyə can atır. Bayram yaxınlaşdıqca, tələbat daha çox olduğu üçün qiymətlər də qalxmaqda davam edir.**

”Baku TV”-nin məlumatına görə, qiymət artımlarına baxmayaraq, bölgələrdəki 5 ulduzlu hotellərdə demək olar boş otaqlar qalmayıb. Hotellərin rəsmi səhifələrində 2-3 günlük qiymətlər 750-800 manat arasında dəyişsə də, reallıq tamamilə fərqlidir.

**“Yeni il sindromu”nun yaşanması ilə bağlı ”Şərq”ə danışan iqtisadçı-alim Nazim Bəydəmirli bildirib ki, əhalinin 80 faizinin aylıq gəliri istehlak və kommunal xərcləri ödəməyə çatır:** ”Son zamanlar vətəndaşlarımız üçün hətta ölkədaxili turizm belə lüksə çevrilib. Belə bir fikir formalaşıb: yalnız elitar təbəqənin istirahətə imkanı və az qala hüququ çatır. Əsas səbəb vətəndaşlarımızın gəlirlərinin az olmasıdır. Eləcə də bölgələrdəki xidmətlərin qiymət səviyyəsi, hotel infrastrukturlarının əlçatmazlığı rəqabət mühitinin olmamasından irəli gəlir. İqtisadiyyatda olan monopoliya, məmur sahibkarlığı ilə bağlıdır. 5 ulduzlu hotellər kütləvi turizm üçün əlçatan deyil. Kütləvi turizmi inkişaf etdirən ölkələrdə heç vaxt 5 ulduzlu və bahalı



hotellərin tikilməsi stimullaşdırılmır. Azərbaycanda isə məmur sahibkarlığına məxsus hotellər mövcuddur”.

İqtisadçının qənaətincə, bəzən hotellər müştərini cəlb etmək üçün boş otağın qalmadığını deyirlər: ”Həmçinin tələb-təklifi qarşılamaya bilər. İldə bir dəfə vətəndaşların bölgələrə istirahətə getməsində problem yoxdur. Borc alıb istirahətə gedənlər də olur.

Ümumiyyətlə, daxili turizmi inkişaf etdirməmiş xaricdən turist gözləmək əbəsdir. Quru sərhədlər də açıq deyil, vətəndaşlarımız problemlə üzləşirlər. Çünki Azərbaycana gələnlərin əksəriyyəti Rusiya, İran, Gürcüstanda yaşayan soydaşlarımızdır.

Onlar mütəmadi şəkildə bayramlarda ölkəmizə baş çəkirlər. Monopoliya turizm sektoruna əngəl törədir, inkişaf yoxdur. Ona görə də qiymətlər optimallaşmır”.

**Aygün Tahir**

# Suitilərin kütləvi ölümü təşviş doğurur

## Rusiyanın atdığı raketlərdən Xəzər çirklənir, canlı təbiət də zərər görür



**Xəzər dənizinin Dağıstan sahillərində suitilərin kütləvi ölüm hallarının aşkarlanması ilə əlaqədar Xəzərin Azərbaycan bölməsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən genişmiqyaslı monitorinqlər keçirilib.**

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev bildirib ki, monitorinqlər zamanı dənizin Xaçmaz rayonu ərazisində İstisu qəsəbəsi, Tikanlıoba, Seyidli və Nabran kəndi istiqamətlərində ümumilikdə 17 suiti cəsədi aşkar olunub.

Suitilərin ölüm səbəbinin araşdırılması məqsədilə Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri ilə birgə cəsədlərdən nümunə götürüləcək və nəticələr barədə məlumat veriləcək.

**Ekoloq Çingiz İsmayılov ”Publika.az”a açıqlamasında bildirib ki, Xəzərdə suitilərin kütləvi formada tələf olmasının bir neçə səbəbi ola bilər:** ”Tam dəqiqləşdirmək üçün leşlərin üzərində analiz aparılmalıdır. Bundan sonra səbəblər aydın olacaq. Amma əsas səbəbləri üçlük formasında sıralaya bilərik. Bunlardan birincisi, çirkab sularıdır. Heyvanlar suya atılan plastik, çirkli maddələrin təsirindən ölürlər.

İkincisi isə yataqlarda seysmik kəşfiyyat işləri aparılan zaman dərin qatlarda partlayışlar olur. Onun radiusu partlayıcı maddənin təsirindən asılı olaraq 3-5 kilometrə çatdıqda, bütün canlılar məhv olur.

Üçüncü səbəb isə suitilərdə yayılan çuma xəstəliyidir. Çuma yoluxucudur və onların tələf olmasına səbəb ola bilər. Qeyd etdiyim kimi, əsas səbəb analizlərin nəticələrindən sonra bəlli olacaq”

**Həkim Vasif İsmayılı isə ”Şərq”ə açıqlamasında deyib ki, ”Qırmızı kitab”a düşəcək qədər sayı azalan suitilərin kütləvi ölümü təşviş doğurur:** ”Son həftələrdə Xəzərin Rusiya və Qazaxıstan sektorunda 2 500 Xəzər suitisinin cəsədinin sahilə vurduğuna dair xəbərlər eşidirik.

Səbəbləri haqqında isə mütəxəssislər ciddi bir şey söyləmirlər.

Rusiya Ukraynaya qarşı apardığı müharibədə Engels şəhərində yerləşən hərbi hava limanından qalxan stratejik bombardmançı təyyarələrdən buraxdığı X 22 və bu tərz raketlərdən istifadə edir. Bunun üçün təyyarə Engels şəhərindən qalxdıqdan sonra Xəzərin Rusiya akvatoriyasına gəlir və raketi oradan buraxır. Əslində Ukraynaya tuşlanmış raketi tərs, yəni Xəzər istiqamətindən buraxmağın bir səbəbi var. X 22 raketinin yanacağı zəhərlidir və bu raketin ciddi problemləri var - raketlərin bir qismi təyyarədən fırladıldıqdan sonra uçmur, yerə düşür.

Raket insan yaşayan torpaqlara düşməsin deyə dəniz üzərindən atırlar.

Görünür, Rusiya daha keyfiyyətli raketləri qurtardığı üçün problemli X 22 raketlərini atmağa başladı və Xəzərə düşən nasaz raket sayı da artdı. Nəticədə, Xəzər də çirklənir, canlı təbiət də zərər görür”.

**Şəymən**

# Mahir Cürətin həyati təhlükəsi yoxdur

## Həkim “Şərq”ə açıqlamasında deyib ki, meyxanaçının səhhətində müsbətə doğru xeyli irəliləyiş var



**Meyxanaçı Mahir Cürət hazırda Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində müalicə alır. Səhhətində ciddi problemlər yaranan meyxanaçı müalicə üçün dekabrın 4-də təcili yardımla ECM-ə yerləşdirilib. M.Cürətin yaxınları tərəfindən ayaqlarına infeksiya düşdüyü və ətinin çürüdüyü bildirilib.**

Meyxanaçının səhhəti barədə ”Şərq”ə açıqlama verən A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin Ümumi şöbə müdiri Ramin Məmmədli isə meyxanaçının hansı müddətə xəstəxanada qalacağının hələlik bəlli olmadığını deyib: ”Mahir Cürət 5-6 gün olar ki, Topçubaşov adına ECM-in Damar-cərrahiyə şöbəsində yatır. Vəziyyəti stabildir, həkim nəzarətində müalicəsi davam edir. Onu deyim ki, xəstəxanaya yerləşdiriləndə vəziyyəti o qədər də qənaətbəxş deyildi. Bu gün isə artıq müsbətə doğru xeyli irəliləyiş var. Tezliklə sağlığına qovuşacağına ümid edirəm”.

Şöbə müdirinin sözlərinə görə, meyxanaçının ayaqlarındakı yaradan əlavə ürəyində və qaraciyərində də ciddi problemlər var. Hələlik xəstəxananın tibb işçiləri tərəfindən vaxtlı-vaxtında ayağındakı yaraları təmizlənib sarınır. Çox şükür ki, həyati təhlükəsi yoxdur. Müalicəsi Damar-cərrahiyə şöbəsinin müdiri Rasim Quliyev tərəfindən aparılır. Digər həkimlər, şəxsən mən özüm də vaxtaşırı Mahir bəyə baş çəkərək onun ümumi vəziyyəti, ehtiyacları ilə yaxından maraqlanıram”.

**Şəymən**

# Mələkxanım Eyubova xəstəlikdən əziyyət çəkir

## “Gənclik illərimdən bu günə kimi masaja gedirəm”



**Xalq artisti Mələkxanım Eyubovanın səhhətində problemlər yaranıb.**

Xanəndə bu haqda ”İkinci həyat” proqramında danışıb. O bildirib ki, səhhətindəki problemin səbəbi yaradıcılığı ilə bağlıdır: ”Dedilər ki, peşə xəstəliyidir. Dəf çalıram, barmaqlarım ağrıyır. Səhnədə hündürdaban ayaqqabılar geyinirik, belimizə ağırlıq düşür. Çıxışlarımız zamanı istidən soyuğa və ya əksinə məkana daxil oluruq. Bu da sağlamlığımıza təsir edir. Qan işləmir, boyun və baş ağrıları olur. Onurğam da ağrıyır. Hər zaman masaja üstünlük vermişəm. Gənclik illərimdən bu günə kimi masaja gedirəm. Bu masajlar məni ayaqda saxlayıb. Amma indi problemlər yaranıb. Həkimlər çox zaman deyirdilər ki, gəl ağrıyan hissəni əməliyyat edək. Amma razılaşmıram”. M.Eyubovanın osteoxondrozdan əziyyət çəkdiyi bildirilib.



# "Anam Şəmkirdəndir"

## İngiltərənin azərbaycanlı gözəli “BBC Azərbaycanca”ya müsahibə verib

**İngiltərənin Azərbaycan əsilli makiyajsız gözəli kimi tanınan Melisa Rauf ”BBC Azərbaycanca”ya müsahibə verib.**

Melisa yarışmaya qatılmasından, makiyajsız çıxışından bəhs edib. O, bildirib ki, anası azərbaycanlı, atası İran azərbaycanlısıdır.

“Atamdakı İran və azərbaycanlı qarışığını sevirəm. Ancaq əlbəttə ki, mən burada böyümüşəm. Mən bunların hamısını sevirəm. Hər şeyin yaxşısını götürürəm. Yəqin ki, qarışıq ailədən olmağın üstünlüyü budur” deyə, Melisa bildirib.

Yarışmaya makiyajsız qatılmasından danışan model ”Makiyajsız çıxış etməyim qadınlara onu göstərir ki, gözəl görünmək üçün standartlara uyğunlaşmaq məcburiyyətində deyilsiniz. Edə biləcəyiniz ən gözəl şey özünüz olmaqdır: makiyajlı və ya makiyajsız. Əvvəlcə Londonda yarışmaya qatıldım, sonra İngiltərədə çıxış mərhələsi var. Burada qızlar makiyaj və effektin olmadığı şəkillər paylaşırlar. Bundan sonra anladım ki, özümü gözəl hiss etməyim üçün makiyaj və filterə ehtiyacım yoxdur” sözlərini əlavə edib.

**Melisa Azərbaycana tez-tez gəldiyini deyib:**

”Nənəmə baş çəkirəm. Nənə-babamı görürəm. Qohumlarımla görüşürəm. Anam əslən Şəmkirdəndir. Orada çoxlu qohumlarım var. Bakını çox sevirəm. Bakı mənim ürəyimdir. Olduğum ən gözəl yerlərdən biridir”.

**İranda baş verənlərə münasibət bildirən İngiltərə gözəli xüsusilə qadınları dəstəklədiyini vurğulayıb:**

”İranda və bütün dünyada qadınlar azad seçim və özlərini ifadə etmək istəyi ilə etirazlar edirlər. Heç bir qadın özünü necə təqdim etməsi ilə bağlı mühakimə edilməməlidir və ya hücumlara məruz qalmamalıdır. Dünyada bu mərd qadınların seçim ideyası uğrunda həyatlarını riskə atması heyrətamizdir. Onlarla fəxr edirəm”.

*Qeyd edək ki, Melisa Rauf ”Miss England” gözəllik müsabiqəsinə qatılıb. Yarımfinalda ”Face Top Model” nominasiyasının qalibi olub. Kollec tələbəsi olan 20 yaşlı Melisa ”Miss İngiltərə”nin 94 illik tarixində makiyajsız yarışan ilk iştirakçıdır.*

# Hormonal dərmanlar çox təhlükəlidir

## İdman zallarında məşqçilər məşqlərə gələnləri aldadır



(Əvvəli səh.8)

**Androloqun söylədiklərinin həqiqət olduğunu deyən təcili tibbi yardım stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov ”Şərq”ə açıqlamasında idman zallarında məşqlərə gedən gənclərə dərman qəbulunda ehtiyatlı olmağı tövsiyə etdi:**

- Dərmanlar müxtəlifdir. Bir var, qida əlavəsi olan dərman preparatları, bir də var tərkibində konkret molekul olan, müalicə məqsədli preparatlar. Dərmanların hamısı hormonal olmur. Dərmanları almazdan, qəbul etməzdən öncə içlik vərəqini oxumaq, istifadəsinə dair göstərişləri bilmək lazımdır. Preparatın hormonal olub-olmadığı içlik vərəqində qeyd edilir. Sırf hormonal dərmanlar təhlükəlidir. Bu cür dərman preparatlarının həkimin konkret göstərişi olmadan təyin edilməsi qadağandır. İdman zallarına məşq etmək üçün gedən yeniyetmələrlə bağlı xüsusilə ehtiyatlı olmaq lazımdır.

Oğlan uşaqlarında hormonal dəyişikliklər 13-15 yaş arası başlayır. Bu yaş dövründə kənar dərmanların qəbulu hormonal inkişafın pozulmasına səbəb olur. Oğlan uşaqlarına 18 yaşa kimi hormonal dərmanların təyin edilməsi ümumiyyətlə, məsləhət deyil. 19-20 yaşdan sonra təyin etmək olar, lakin buna tibbi ehtiyac yaranıbsa, müalicə kursu bunu tələb edirsə. Qida əlavələrinin özü də sistemsiz, tibbi göstəriş olmadığı halda qəbul edilirsə, elmi səhiyyə tərəfindən artıq təsdiqlənib ki, onlar da orqanizmdə xoş və bədxassəli şişləri aktivləşdirir. Yəni istənilən dərman preparatını yalnız həkim təyinatı ilə qəbul etmək lazımdır. Müəyyən qrup dərmanlar var ki, onkoloji xəstəliyi olanların səhhətində ciddi problemlər yaradır.

**Ş.Məmmədov qeyd etdi ki, bədənin möhkəmlənməsi, əzələ toplanması müəyyən müddət ərzində formalaşır. Bu prosesi süni üsullarla sürətləndirmək ziyandır:**

- Hər orqanizm fərdidir. İnkişaf sürəti, hormonal yetişkinlik də hər orqanizmdə fərqli vaxtlarda baş verir. Gənclər idmançı görkəminə malik olmaq, əzələ toplamaq istəyirlərsə, buna təbii yolla nail olmalıdırlar. Müxtəlif fiziki hərəkətlər var, hansı ki bədənin möhkəmlənməsinə, əzələ toplanmasına kömək edir. İdmanla daimi məşğul olan, sağlam həyat tərzi keçirən insanın orqanizmi daxilən də möhkəm olacaq, zahirən də cüssəli, qamətli görünəcək. Süni yolla şişirdilmiş əzələlər hava üfürülmüş şar kimidir. Bir də gördün ki, ”partladı”, içindəki hava da uçdu getdi. Zahiri bədən möhkəmliyi itəcək, bu, öz yerində, eyni zamanda orqanizmin sağlamlığına da ciddi ziyan dəyəcək, fəsadlar yaranacaq. Trenajor zallarına getsinlər, idmanla məşğul olsunlar, lakin süni vasitələrə, gərəksiz dərman preparatlarına yaxın durmasınlar.

**Mələhət Rzayeva**

**Elan**

”Ümid” Kiçik Müəssisəsinin (VÖEN: 290000287) möhür və ştampı itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Mələhət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3542




## Şuşada 37 il öncə çəkilən fotonu təkrarladılar

### Görüntü sosial şəbəkə izləyiciləri tərəfindən böyük maraqla qarşılanıb

**Şuşada 37 il öncə çəkilən foto təkrarlanıb. Axşam.az xəbər verir ki, 1985-ci ildə, Şuşanın işğalından öncə görkəmli bəstəkar Üzeyir Hacıbəyovun heykəlinin fonunda çəkilən foto illər sonra yenidən, Şuşa işğaldan azad olunduqdan sonra canlandırılıb.**

Fotoqraf Elnur Abdullanın lentə aldığı foto sosial şəbəkə izləyiciləri tərəfindən böyük maraqla qarşılanıb.

Xatırladaq ki, Ü.Hacıbəyovun heykəli 1992-ci ildə Şuşa şəhərinin işğalı zamanı ermənilər tərəfindən tamamilə dağıdılmışdı.

2021-ci il avqustun 29-da Şuşada görkəmli bəstəkar Üzeyir Hacıbəyovun heykəlinin açılışı olub. Heydər Əliyev Fondu tərəfindən Bakı emalatxanasında hazırlanan abidə 1985-ci ildə bəstəkarın 100 illiyi münasibətilə Şuşada ucaldılan və müəllifi heykəltaraş Əhməd Salikov olan bürünc heykəlin surəti əsasında yaradılıb.

*Heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Abidə heykəltəraşlar Aslan Rüstəmov, Teymur Rüstəmov və Mahmud Rüstəmov tərəfindən hazırlanıb.*

## Oğul anasına qaraciyərindən pay verdi



**Qaraciyər sirrozunun yaratdığı ağırlaşmalarla həyatda qalmağı üçün tək şansı qaraciyər köçürülməsi olan xəstəmizə oğlu qaraciyər bağışladı. Qaraciyərinin sağ payını anasına bağışlayan oğlu anasını həyatda tutmağı bacardı.**

"Medicina" xəbər verir ki, Mərkəzi Klinikanın ümumi cərrahı, transplantoloq Tariyel Nadirov əməliyyatın uğurla baş tutduğunu bildirib.

Oğul donor əməliyyatdan 5 gün, anası isə 10 gün sonra sağlam şəkildə evə yola salındı.

"Orqan nəqli möcüzədir. Bu əməliyyatda əziyyəti keçən hər kəsə öz təşəkkürümü bildirirəm. Orqan nəqli bir komanda işidir", - deyə Tariyel Nadirov qeyd edib.

## Dayə qiymətləri 4 dəfə artıb



**Uşaq baxıcılarının artıq maaş tələbi işləyən ailələri gərginləşdirməkdə davam edir. Keçən il Türkiyədə 3 min 500 lirədən başlayan maaşlar indi 4 dəfədən çox artıb.**

Bundan əlavə, baxıcının universitet məzunu olması, xarici dil bilməsi və internatda qalması artıma təsir edən səbəblərdən olub. Bu xüsusiyyətlərə sahib baxıcılar 40 min lirəyə qədər ödəniş istəyirlər.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, keçən il ailələrin 3 min 500 TL ilə 7 min TL arasında türkmən və ya özbək baxıcı tapa bildikləri halda, bu il isə qiymətlər 14 min ilə, 20 min TL arasında dəyişir.

Məlumatda bildirilib ki, ailələr yüksək maaş tələbinə qarşı baxıcılara "mən hüquqşünasam, diş həkimiyəm, əczaçıyam, heç bu qədər maaş almıram" kimi cavab verirlər.

Dayə qiymətlərinin qalxmasından sonra bir çox ailələrdə uşaqlarına baxmaq üçün işini tərk edən və ya böyüklərindən kömək istəyənlərin sayı da artıb. Mütəxəssislər isə ailələrə baxıcı seçimində sərfəli görünən şirkətlərdən ehtiyatlı olmaları barədə xəbərdarlıq edir.

**Turan**

## İllər sonra oğlu açıqladı

### Barış Manço haqqında həqiqət təəccübləndirdi



**Türkiyənin məşhur sənətçisi Barış Mançonun oğlu Doğuxan Manço ilk dəfə atası ilə bağlı maraqlı bir faktı açıqlayıb.** Bakupost.az Türkiyə mətbuatına istinadla xəbər verir ki, Doğuxan Mançonun sənətkarın sənədlərdə 4 ad ilə qeydiyyata düşdüyünü açıqlaması hər kəsi təəccübləndirib: "II Dünya Müharibəsi illərində əmim dünyaya gəlir. Gündəmə uyğun olaraq uşağa Savaş adı qoyurlar. İllər sonra insanlar artıq sülh həsrətilə müharibənin bitməsini gözləyəndə - 1943-cü ildə atam dünyaya gəlir və qərar verirlər ki, adı Barış olsun. Amma atamın əsl adı Mehmetdir. Bu ad atamın babası Mehmet Abdi Mançodan gəlir. Bibim İnci Mançodan eşitdiyimə görə, 1942-ci ildə əmisi oğlu Yusif Kuzey dünyasını dəyişir. Onun xatirəsinə hörmət olaraq atamın adına Yusif adı da əlavə edilir. Bundan başqa atam 5.5 kq doğulduğu üçün xəstəxanada tibb bacıları, "bu uşağın adı Tosun olsun" deyiblər. Beləliklə də atamın adı qeydlərə Tosun Yusif Mehmet Barış Manço olaraq düşüb".




# Tviterdə xaos bitmir

## Mask qohumlarını işə götürür

**Dünyanın ən zəngin insanlarından biri - Elon Mask (Elon Musk) maddi çöküş yaşanan tviteri 44 milyard dollara satın aldıqdan sonra sosial media platformasının minlərlə əməkdaşını işdən qovdu, ardınca isə öz qohumlarını işə götürdü.**




Bununla belə, Maskın şirkətində sular durulmur, bu texnoloji nəhəngdə baş verənlər gündəmdən düşmür. Mask əməkdaşların işdən çıxarılmasını şirkətin zərərə işləməsi ilə izah etməyə çalışır, lakin vəziyyətin yaxşılaşmasını söyləmək yenə də çətindir. Bu günlərdə isə şirkət çalışanlarından birinin ofisdə iş vaxtı yuxuya getməsini əks etdirən görüntülərin sosial şəbəkədə yayılması müzakirələri yenidən alovlandırıb. Bazar ertəsi işə gedənlər ofisdəki bəzi otaqların yataq otağına çevrildiyini görüb. Yataq otaqlarına çarpayı, oturacaqlar, xalça, pərdə və konfrans zalı ilə əlaqələndirilmiş monitorlar qoyulub. Deyilənə görə, hər mərtəbədə 4-8 yataq otağı quraşdırılıb. Mask isə paylaşım edərək "gərgin iş şəraitində çalışanlara dincəlmək imkanı yaratmışam", - deyib. San-Fransisko bələdiyyəsi isə "kimsə hüquqdan üstün deyil. Hər kəs binaların təyinatı üzrə istifadəsinə hökümlüdür. Kimsə qaydaları poza bilməz. İş yerində yataq otağı təhlükəlidir", söyləyib. E.Mask isə əməkdaşları işdən qovmaqda davam edir. E.Mask şirkətdə uzun illərdir vəkil işləmiş Ceyms Bakeri də işdən çıxarıb. Buna səbəb kimi isə Bakerin ABŞ-də 2020-ci il prezident seçkiləri zamanı C.Baydenin oğlu Hunter Baydenlə bağlı məlumatların tviterdə senzuraya məruz qalmasını göstərib. "Business Insider" dərgisi isə E.Maskın əmisi oğlanlarını işə qəbul etdiyini yazıb. Xəbərə görə, E.Mask tviteri satın aldıqdan bu yana 7 min 500 əməkdaşın 70 faizi ya işdən çıxarılıb, ya da istefa verib.

**Məlahət**



# Hormonal dərmanlar çox təhlükəlidir

### İdman zallarında məşqçilər məşqlərə gələnləri aldadır

**İdman zallarında məşqlərə gələnlərə məşqçilər tərəfindən hormonal preparatlar təklif edilir. Bu dərmanların əzələ şişməsinə, bədənin "yaxşı görünüş" almasına kömək etdiyi bildirilir.**

Lakin mütəxəssislər bu hormonal dərmanların süni, müvəqqəti əzələ toplanmasına süni şəkildə, həm də müvəqqəti kömək etdiyi, orqanizmdə yaradacağı fəsadlarınsa uzunmüddətli və daha ağır olacağı qənaətindədir. Bu barədə androloq Namiq İsmayılov xəbərdarlıq edib. "Bakupost.az"a açıqlamasında həkim bildirib ki, hormonal terapiyadan istifadə ziyanlıdır: "Məşqçilər maddi maraq güdürək məşqin effektini, əzələ kütləsini tez artırmaq, qolları şişirtmək üçün müəyyən dərmanlar təklif edir. Bunlar anaboliklər, steroidlər, samotrop hormonal qrupundan olan preparatlar, "Danabol", "Sustanon", "Somatropin" tip dərmanlardır. Bu dərmanlarla əzələ kütləsi tez şişir, amma gənclərdə təbii testosteron sintezi pozulur. 20-30 yaşında gəncə steroid hormonlar vurulursa, onun orqanizmindəki hormonların fəaliyyəti dayanır. Bu da kişilərdə androloji və hormonal pozuntu, sonsuzluq yaradır. Son zamanlar belə dərmanların təsirindən bəzi pasiyentlərin bədənində şişlərin yarandığının şahidi olmuşam. Hətta bir gənc pasiyentimin beynində şiş yaranmışdı".

> "Gənclər idmançı görkəminə malik olmaq, əzələ toplamaq istəyirlərsə, buna təbii yolla nail olmalıdırlar"

Namiq İsmayılovun sözlərinə görə, nəinki məşqçilər, hətta həkimlərin çoxu kişilərə hormonal dərmanları düzgün təyin edə bilmir: "Hansı hallarda hansı hormon yazılmalıdır, bunu əsasən andrologiyanın incəliklərini bilən peşəkar androloq və ya endokrinoloq təyin edə bilər. Zalda tibbi savadı olmayan məşqçilərin öz maraqlarına uyğun dərman tövsiyə etməsi qadağandır. Bu, kişilərin gələcəyini məhv edə, idmançılarda ciddi pozuntulara, hətta qəfil ölümə də səbəb ola bilər".

*(Davamı səh.7)*

## Qozun iç pərdəsi əksər xəstəliklərin dərmanıdır



**Görünüşünə görə ağciyəri xatırladan qozun iç pərdəsi ağciyərin müalicəsində çox təsirli vasitədir.**

Qida məsələləri üzrə mütəxəssis Ağa Salamovun "Şərq"ə açıqlamasına görə, qozun pərdəsi yuxarı tənəffüs yollarının əksər xəstəliklərini, xüsusən də öskürəyi dərhal aradan qaldırmaq xüsusiyyətinə malikdir.

Ekspert bildirib ki, orqanizmdə sərbəst radikallara qarşı mübarizə aparan qozun iç pərdəsi immunitet sistemini gücləndirir, xərçəng hüceyrələrinin qarşısını da alır: "Qoz pərdəsini qaynadıb içməklə həm ağciyərin sağlam qalmasına və təmizlənməsinə yardımçı olmaq olar, həm də siqaret çəkən insanlar da siqaretin ağciyərə vurduğu zərərin qarşısını ala bilərlər.

Ev şəraitində də qoz qabığından çayı asan yolla hazırlamaq mümkündür. Otaq temperaturunda soyudulmuş bu çay gündəlik istehlak oluna bilən içkilərdən sayılır.

Hazırlanma qaydası, 5-6 ədəd qozun iç pərdəsi bir stəkan suda qaynadılır və 5 dəqiqə qaynadıqdan sonra otaq temperaturunda soyudulub içilir".

**Şəymən**

## Nadir mumiya portretlər aşkarlandı

### Məlum olub ki, bu ölülərin detallı rəsmləridir





**Arxeoloqlar Misirin Fayum bölgəsində nadir mumiya portretləri tapıblar.**

Azərtac xəbər verir ki, bu barədə Misirin Turizm və Qədim Abidələr Nazirliyi məlumat yayıb.

Nazirliyin məlumatında qeyd olunub ki, portretlər Ptolemey və Roma dövrünə aid olan Qerza arxeoloji məkanındakı qəbiristanlığın bir hissəsi olan katakomba üslubunda böyük yeraltı dəfn binasında tabutların üzərində tapılıb.

Mumiya portretləri ölülərin detallı rəsmləridir. "Antik-origins.net" saytındakı məqalədə bununla bağlı bildirilib ki, taxta üzərində çəkilən bu rəsmlər Misirin Yunan-Roma dövrünə - təxminən eramızdan əvvəl 1-ci əsrə aiddir.

*Qeyd edək ki, Misirdə ilk mumiya portretləri 115 il əvvəl ingilis arxeoloqu Flinders Petrie tərəfindən tapılıb.*